QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 221 (5693) **22 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan-Türkmənistan əlaqələri yeni mərhələyə qədəm qoyur

*Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanda rəsmi səfərdədir*




Səh 2

**Minsk görüşü ölkəmizin növbəti diplomatik qələbəsidir**



4

**Heydər Əliyev Fondunun Nizami Gəncəvi irsini təbliğ edən daha bir layihəsi - "Yeddi gözəl" sərgisi Moskvada açılıb**



5

**Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katibləri-nin altıncı görüşü keçirilib**



6

**YAP zəfərlər və qələbələr partiyasıdır!**



8

**DSX-nin rəisi Türkiyənin Baş Qərargah rəisi ilə görüşüb**



7

**Vladimir Solovyov: "Azərbaycanda Rusiya mədəniyyətinə, Rusiya KİV-lərinə böyük hörmət bəslənilir"**



7

6

**XİN: "Paşinyanın bəyanatı onun ümumbəşəri humanizm prinsiplərini rədd edən biri olduğunu göstərir"**



14

**Siyasi "bomj"luğun Əli Kərimli nümunəsi**



16

**"Milan"dan açıqlama: "İbrahimoviçlə danışıqlar aparırıq"**



# Azərbaycan-Türkmənistan əlaqələri yeni mərhələyə qədəm qoyur

*Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanda rəsmi səfərdədir*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkmənistana rəsmi səfərə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın və Türkmənistanın dövlət bayraqlarının dalğalandığı Aşqabad beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Türkmənistanın Baş nazirinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər yüksək vəzifəli şəxslər qarşılayıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda "Xalq xatirəsi" memorial kompleksini ziyarət edib. Kompleksdə 1948-ci ildə baş vermiş zəlzələ zamanı həyatlarını itirmiş və Göytəpə döyüşlərində şəhid olmuş insanların xatirəsinə abidələr ucaldılıb.

**Ardı Səh. 3**

## Rəsmi xronika

Prezident İlham Əliyev Çingiz Fərzəliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Çingiz Əbdül Məcid oğlu Fərzəliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Livan Respublikasının Prezidenti Mişel Auna təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Livan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm. Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına sülh və rifah diləyirəm".

* * *

Prezident İlham Əliyev Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaniyə başsağlığı verib. Məktubda deyilir: "Hörmətli cənab Prezident, Kabil şəhərində törədilmiş partlayış nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi son dərəcə kədərləndirdi. Biz bu dəhşətli terror aktından olduqca hiddətlənir, terrorizmə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik. Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm".

* * *

Prezident İlham Əliyev "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1315-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1316-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1292-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1310-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

# Azərbaycan-Türkmənistan əlaqələri yeni mərhələyə qədəm qoyur

*Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanda rəsmi səfərdədir*










**Əvvəli-Səh-2**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev "Əbədi şöhrət" abidəsinin önünə əklil qoyub. Sonra dövlətimizin başçısı "Vətən müqəddəsliyi" muzeyi ilə tanış olub.

Muzeydə Göytəpə döyüşlərinin maketi quraşdırılıb, eyni zamanda, Göytəpə qalası, həmin döyüşlərin qəhrəmanları, döyüşlər zamanı istifadə olunan silah və libaslar, həmçinin digər eksponatlar nümayiş olunur.

Dövlətimizin başçısı 1881-ci ildə baş vermiş Göytəpə döyüşlərinin instalyasiyasına baxıb. Muzeydə, eyni zamanda, İkinci Dünya müharibəsi, onun qəhrəmanları, həmçinin həmin müharibə zamanı hərbçilərin istifadə etdikləri geyimlər, silah-sursat və digər eksponatlar sərgilənir.

Muzeyin növbəti bölməsi 1948-ci ildə Aşqabadda baş verən zəlzələyə həsr olunub. Burada həmin zəlzələ zamanı dağılan binaların qalıqları təqdim edilir. Türkmənistanın inkişafına həsr olunan bölmədə müasir Aşqabadın görkəmini əks etdirən fotolar nümayiş etdirilir. Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Aşqabadda Olimpiya Kompleksi ilə tanış olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, 2017-ci ildə Aşqabadda keçirilən qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının ən əsas idman obyektləri bu Kompleksin ərazisində yerləşir.

Ümumi ərazisi 157 hektar olan Olimpiya Kompleksində qapalı məkanlarda və döyüş növləri üzrə V Asiya Oyunlarının açılış və bağlanış mərasimləri, bütün yarışlar, o cümlədən mükafatlandırma tədbirləri təşkil olunub. Kompleksdə ümumilikdə 30-dan çox müxtəlif təyinatlı idman qurğusu, həmçinin 45 min tamaşaçı tutumu olan Olimpiya stadionu, paralimpiya kompleksi və tibbi bərpa mərkəzi yerləşir.

Ərazidə, eyni zamanda, üzgüçülük arenası, voleybol, basketbol, futbol meydançaları, Olimpiya kəndi, qapalı velotrek, döyüş sənəti üzrə idman kompleksi, yüngül atletika arenası və tennis kortu, eləcə də idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün çoxfunksiyalı zal inşa olunub. Aşqabad Olimpiya Kompleksində, həmçinin biznes-mərkəz, mehmanxanalar və sağlamlıq mərkəzi də fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də həmçinin Aşqabadda Türkmən milli xalça muzeyi ilə tanış olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu muzey Türkmənistan Prezidentinin Sərəncamı ilə 1993-cü ildə yaradılıb. Məqsəd Türkmənistanın xalçaçılıq sənətini qorumaq və inkişaf etdirməkdir. Muzeyin yaradıldığı gün hər il ölkədə Türkmən Xalçası Günü kimi qeyd olunur.

Burada muzeylə yanaşı, "Türkmənxalı" Dövlət Birliyinin inzibati binası da var. Muzey binasının ümumi sahəsi 5 min kvadratmetrdən çoxdur.

Bu muzeydə 2 mindən çox xalça nümunəsi toplanılıb. Onların sırasında nadir eksponatlar da var. Burada miniatür xalça nümunələri ilə bərabər, əl ilə toxunan ən böyük xalça kimi Ginnesin rekordlar kitabına düşmüş ümumi sahəsi 301 kvadratmetr olan "Altın asır" xalçası da nümayiş etdirilir. Bu böyük xalça Türkmənistanın müstəqilliyini bərpa etməsinin 10 illiyi münasibətilə toxunulub. Muzeydə köhnə xalçaların bərpası da həyata keçirilir.

Burada, həmçinin müxtəlif səpkili mədəni tədbirlər, sərgilər, beynəlxalq forumlar və konfranslar da təşkil olunur. Bu muzey Türkmənistanın mühüm mədəniyyət mərkəzlərindən biri hesab edilir. Dövlətimizin başçısı muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

# Minsk görüşü ölkəmizin növbəti diplomatik qələbəsidir



***Hazırkı dövrədək Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa 5 dəfə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun isə Azərbaycana 4 dəfə rəsmi səfər etməsi, daha dəqiq desək, ölkələrimizin liderləri arasındakı bu cür intensiv təmaslar, əlbəttə ki, strateji tərəfdaş olmaları ilə izah edilir. Daha geniş əməkdaşlığa yol açan imkanların, hər iki tərəfin maraq dairəsinə daxil olan məsələlərin çoxluğu, ələlxüsus, maraqların birləşməsi münasibətlərin yaxınlaşmasını şərtləndirir. Prezident İlham Əliyevin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə son görüşünün protokol üzrə 45 dəqiqə nəzərdə tutulmasına baxmayaraq, dövlət başçılarının təkbətək görüşünün 2 saatdan çox davam etməsi heç də təsadüfi deyil.***



Görüşün nəzərdə tutulduğundan, daha uzun müddət davam etməsi təsdiq edir ki, dövlət başçıları arasındakı münasibətlərin məzmunu və müzakirə gündəliyi olduqca zəngindir. Səmimi dostluq və yüksək qarşılıqlı etimada əsaslanan danışıqlar zamanı ölkələrimiz arasındakı gələcək əməkdaşlıq planları qarşıdakı yeni perspektivlərdən xəbər verir. Səfər çərçivəsində ölkələrimiz arasında kənd təsərrüfatı, iqtisadiyyat, hərbi-texniki, sosial-müdafiə, hüquq-mühafizə və digər sahələri əhatə edən 9 sənədin imzalanması isə əməkdaşlığın bundan sonra daha geniş miqyasda davam edəcəyini təsdiq edir.

## Prezidentlərin birgə bəyanatı Ermənistanın növbəti təcridi deməkdir

İmzalanmış sənədlərin əhəmiyyətindən, mahiyyətindən çox geniş şəkildə qeyd etmək olar, lakin səfər çərçivəsində baş tutan görüşlərin yekununda əldə olunan ən vacib sənəd "Azərbaycan Respublikası Prezidenti və Belarus Respublikası Prezidentinin birgə bəyanatı" hesab olunur. Sənəddə Minsk ilə Bakının bir-biri ilə əlaqələrini strateji tərəfdaşlıq, qarşılıqlı etimad və hərtərəfli əməkdaşlıq çərçivəsində inkişaf etdirdikləri öz əksini tapır ki, bu da münasibətlərin mahiyyətini aydın şəkildə izah edir. Daha dəqiq desək, Azərbaycanla Belarusun bütün məsələlərlə bağlı bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan müzakirələri, beynəlxalq siyasətdə onlara qarşı irəli sürülən qarayaxma təşəbbüslərindən müdafiə, ortaq maraqların təmin olunması sənəddə öz əksini tapır. Sənədin 6-cı bəndində vurğulanan "Tərəflər Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumqəbulolunmuş norma və prinsipləri, xüsusilə də, dövlətlərin suveren bərabərliyi, sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə sülh yolu ilə həllini vacib bilirlər" ifadəsi onu deməyə əsas verir ki, rəsmi Yerevan nə qədər təbliğat maşınını işə salsa da, Azərbaycan həqiqətləri, ölkəmizin ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycan torpaqları olması dünya ölkələri tərəfindən qəbul olunur və dəstəklənir.

## Anlaşma Memorandumu təsdiq edir ki, Azərbaycan münaqişənin hərbi yolla həllinə hər zaman hazırdır və güclü olan potensialı durmadan artmaqdadır

Strateji tərəfdaş olan ölkələrin rəhbərlərinin görüşü zamanı hərbi əməkdaşlıq və təhlükəsizlik məsələlərinin müzakirəsi də vacib məsələ hesab olunur və xüsusilə, önəmlidir. Azərbaycanla Belarus arasındakı uğurlu hərbi-texniki əməkdaşlıq təcrübəsinə əsaslanaraq, Cənab Prezidentin sonuncu səfəri çərçivəsində Bakı və Minsk arasında hərbi-texniki sahədə qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi barəsində Anlaşma Memorandumunun imzalanması ölkəmiz üçün daha böyük əhəmiyyət kəsb edir. Azərbayca-

Azərbaycan üçün daha önəmlidir. Bu, beynəlxalq ictimaiyyətin Belarusun nümunəsində Azərbaycanın haqlı mövqeyinə dəstəyinin daha da güclənməsi anlamına gəlir və Ermənistanın təcridinin növbəti təzahürüdür.

Ermənistanla müttəfiqlik münasibətlərinə malik rəsmi Minskin sənədin 6-cı bəndinə imza atması, eyni zamanda, işğalçı dövlətlə müttəfiqlik münasibətləri olan dövlətlərin belə, birmənalı şəkildə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini təsdiq edir. Ermənistanla eyni hərbi-siyasi bloka daxil olan dövlətlərin Azərbaycanın mövqeyini, haqlı olduğunu müdafiə etməsi, xüsusilə önəmlidir. Bu isə, öz növbəsində,

nın hava hücumundan müdafiə sistemləri və hücum təyinatlı silahlarla təchiz edilməsi üçün yeni müqavilələrin imzalanmasını nəzərdə tutan bu Anlaşma Memorandumu ölkələrimiz arasında hərbi əməkdaşlıq sahəsində heç də ilk addım deyil. Bu vaxta qədər Azərbaycan Belarusdan "Polonez" zenit-raket sistemləri, zirehli texnika və digər hərbi vasitələr də alıb və bundan sonra da bu əməkdaşlığın davam edəcəyi bu baxımdan, zərrə qədər şübhə doğura bilməz.

Məsələnin ən önəmli tərəfi ondan ibarətdir ki, Azərbaycan bu əməkdaşlığı davam etdirməklə təsdiq edir ki, ölkəmiz böyük maliyyə vəsaitlərinə malikdir və müstəqil qərar vermək iqtidarındadır. Bu əməkdaşlığın davam etdirilməsi, Anlaşma Memorandumu bir daha təsdiq edir ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli variantına da hər zaman hazırdır və güclü olan potensialı durmadan artmaqdadır.

## Belarusun Azərbaycana silah satmasından narahatlıq keçirən Paşinyanın təlaşı və çarəsizliyi başa düşüləndir

Prezident İlham Əliyevin Belarusa son səfərindən, imzalanan əməkdaşlıq müqavilələrindən, ələlxüsus, hərbi sahədə imzalanan Anlaşma Memorandumundan sonra Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyanın kürkünə birə düşüb və bu, heç də təsadüfi deyil. İrəvanda tələsik mətbuat konfransı çağıran Nikolun təlaşı başa düşüləndir. Belarusun Azərbaycana silah satmasından narahatlıq keçirən Paşinyanın son çarəsi, daha doğrusu, çarəsizliyi özünü büruzə verməkdədir və mətbuat konfransı keçirməsi bunu təsdiq edir.

"Belarusun Azərbaycana silah satması Ermənistanın maraqlarına və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı daxilində əməkdaşlığın ruhuna ziddir" kimi təsirsiz ifadə səsləndirən Nikol Paşinyan özü də çox gözəl başa düşür ki, Ermənistanla eyni hərbi-siyasi bloka daxil olan Belarusun timsalında digər müttəfiqi olan dövlətlər də Azərbaycan həqiqətlərini, ərazi bütövlüyünü qəbul edir və dəstəkləyir. Ermənistanın baş naziri səlahiyyətlərini icra edən küçə nümayişçisini narahat edən əsas məsələ isə odur ki, Azərbaycanın işğalçı dövlət üzərində diplomatik qələbələri artıq davamlı xarakter daşıyır və dövlət başçımızın Minsk görüşü ölkəmizin növbəti diplomatik qələbəsidir.

***İnam HACIYEV***

# Heydər Əliyev Fondunun Nizami Gəncəvi irsini təbliğ edən daha bir layihəsi - "Yeddi gözəl" sərgisi Moskvada açılıb

***Noyabrın 20-də Moskvadakı Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində "Yeddi gözəl" sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılış mərasimində iştirak edib. Sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Xalça Muzeyinin təşkilatçılığı, ölkəmizin Rusiyadakı səfirliyinin dəstəyi ilə keçirilir. Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bildirib ki, sərginin konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin poeması və dünya şöhrətli bəstəkar Qara Qarayevin baleti əsasında qurulub:***







"Bu gün siz miniatürləri, xalçaları və zinət əşyalarını görə biləcəksiniz. Ekspozisiya, həmçinin Azərbaycan klassik musiqisi, klassik rəqslər və müasir incəsənət elementləri ilə zənginləşdirilib. Sərgiyə gələn tamaşaçılar yeddi gözəl və Bəhram şah əfsanəsinin sehrinə dalacaqlar. "Yeddi gözəl" poeması Şərq poeziyasının ən yaxşı nümunələrindən biridir. Poemanın dərinliyi, fəlsəfi aləmi xalçalar, kitab miniatürləri proyeksiyaları, dekorativ tətbiqi sənət nümunələri və instalyasiyalar vasitəsilə təqdim olunur. "Yeddi gözəl" baletinə həsr olunmuş və bu gün tamaşaçılara təqdim olunan arxiv materialları çox qiymətli tarixi arayışlardır. Bu gün siz qədim afişalar, baletin proqramları, fotoşəkillər vasitəsilə informasiya əldə edə bilərsiniz. "Yeddi gözəl" sərgisinin açılışı olduqca əhəmiyyətlidir. Çünki dahi Nizaminin əsərləri Azərbaycan ədəbiyyatının böyük bir dövrünü əhatə edir.

Əziz dostlar, müddətsiz yaradıcılıq göylərin bizə göndərdiyi nemətdir. O, insana daha da yaxşı olmaqda, öz qəlbinin dərinliklərinə varmaqda və ən ali qüvvə olan sevgini özü üçün açmaqda kömək edir.

Mən bu imkanı yaratdığına görə Yelena Titovaya təşəkkürümü bildirmək istəyirəm. Sərgi üzərində işləyən hər kəsə təşəkkür edirəm. Bu gün bizimlə olduğunuz üçün hamınıza minnətdaram".



Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyinin direktoru Yelena Titova çıxış edərək bildirib ki, muzeyin Azərbaycandan olan həmkarları ilə çox yaxşı əlaqələri var. Heydər Əliyev Fondu və Azərbaycan Xalça Muzeyi ilə xüsusilə səmimi münasibətlərinin olduğunu diqqətə çatdıran Y.Titova deyib: "Yeddi gözəl" şərqsayağı zərif, dərin fəlsəfi mənaya və valehedici dizayna malik sərgidir. Sərgidə müasir texnologiyalar, zəngin tarix, rəssamların ustalığı əksini tapıb. Sərgi salonlarının əksəriyyəti Qara Qarayevin yaradıcılığına həsr olunub. Onun "Yeddi gözəl" baleti nadir əsərdir. Lakin sərgi təkcə balet haqqında deyil, onun konsepsiyası daha genişdir. Ekspozisiya böyük Azərbaycan eposu - XII əsr dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin poemasına əsaslanır".

Y.Titova sərginin təşkilinə görə Heydər Əliyev Fonduna, Azərbaycan Xalça Muzeyinin əməkdaşlarına və bu işdə əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Son aylarda Moskvada Azərbaycana həsr olunmuş bir neçə əhəmiyyətli tədbirin keçirildiyini xatırladan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu bildirib: "Bu yaxınlarda - oktyabr ayının ortalarında Moskva meriyası ilə üzbəüz mərkəzi meydanda "Azərbaycanın payız sovqatları" sərgisi açılmışdı. Beş gün ərzində sərgini 70 mindən çox adam ziyarət etdi. Dünən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) böyük Azərbaycan mütəfəkkiri İmadəddin Nəsiminin büstünün açılışı, Moskva Dövlət Universitetində "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Bu gün bu gözəl muzeydə, özü-özlüyündə muzey olan bu nadir binada "Yeddi gözəl" sərgisi açılır".

Tədbirlərin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edən diplomat deyib: "Bütün bu tədbirlər Heydər Əliyev Fondunun dəstəyi sayəsində ərsəyə gəlib. Mən, həmçinin bu tədbirlərin təşkilində fəal iştirakına və yardımına görə Leyla xanıma minnətdarlığımı bildirmək istəyirəm. Nəsiminin xatirə abidəsinə görə xüsusi təşəkkür edirəm. Bu abidə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) kimi bir universitetdə qoyulub. Universitetə gələn hər yeni nəsil Nəsimi haqqında daha çox məlumat əldə edəcək. Bugünkü tədbirə gəldikdə isə sərgi iki xalqın və ölkənin həyatında əlamətdar hadisədir. Mən sizin hamınıza xoş ovqat arzu edirəm ki, bu sərgi xatirələrinizdə qalsın".

Sərginin ekspozisiyasının konsepsiyası XII əsr dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin eyniadlı baleti əsasında qurulub. Layihədə Azərbaycan mədəniyyəti xalça, zərgərlik və miniatür sənəti, müasir incəsənət, klassik musiqi və rəqsin sintezində təqdim olunur.

Ekspozisiya Heydər Əliyev Fondu, Azərbaycan Xalça Muzeyi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eksponatlarından ibarətdir. Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparır. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılır.

Sərgi məkanı ziyarətçini Bəhram şah və yeddi gözəl haqqında əfsanəyə aparacaq. Azərbaycan mədəniyyətində mühüm rol oynayan bu ədəbi əsərin fəlsəfi aləmi xalça, kitab miniatürləri proyeksiyası, dekorativ-tətbiqi sənət əşyaları və instalyasiyalar vasitəsilə canlandırılacaq.

Sərgidə nümayiş olunan "Miniatür" instalyasiyasını Azərbaycan rəssamı Rəşad Ələkbərov XVI əsrə aid "Kitab oxuyan gənc" Təbriz miniatürü əsasında yaradıb. Kompozisiyanın ideyası hər bir ziyarətçini qədim nağıl və əfsanələr aləminə aparan illüziya portalının yaradılması üzərində qurulub. Burada tamaşaçıların gözü önündə Nizaminin poeması canlanır. "Kitab oxuyan gənc" miniatürünü I Şah Təhmasib dövründə səfəvi rəngkarlığının zirvəsi sayılan Sultan Məhəmmədin yaratdığı bildirilir və bu əsər Parisdə V.Veverin kolleksiyasında qorunur.

Qara Qarayevin Nizami Gəncəvinin poeması əsasında yazdığı "Yeddi gözəl" baletindən səhnələr, həmçinin həmin tamaşaya aid arxiv materialları da sərginin ekspozisiyasına daxildir. Ziyarətçi burada özünü balet məkanında görür: onu Nizami qəhrəmanlarını canlandıran balerinalar əhatə edir. Sərgi 2019-cu il fevralın 3-dək davam edəcək.

Qeyd edək ki, Heydər Əliyev Fondu dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığının yaşadılması və dünyada tanıdılması istiqamətində bu günədək bir sıra layihələr həyata keçirib. Bunların sırasında Gəncədə Nizami Gəncəvi Muzeyinin yaradılmasını, Fransa və onun regionlarında şairə həsr olunan sərgi və konfransların təşkilini, Romada Nizami Gəncəvinin abidəsinin ucaldılmasını, Sankt-Peterburqda Nizami Gəncəvi bağının yaradılmasını, Nizami Gəncəvinin "Xəmsə"sinin yeni formatda - "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" poemalarının Azərbaycan dilində ilk dəfə bir kitab şəklində nəşr olunmasını və digər layihələri qeyd etmək olar.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
22 noyabr 2018-ci il

# Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin altıncı görüşü keçirilib






*Noyabrın 21-də Moskvada MDB dövlətlərinin təhlükəsizlik şuraları katiblərinin VI görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.*

Görüşün gündəliyinə Əfqanıstan İslam Respublikasındakı vəziyyət, həmin ölkədə fəaliyyət göstərən terrorçu təşkilatların MDB-nin üzvü olan dövlətlərin təhlükəsizliyinə törətdiyi təhdidlər, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə əməkdaşlıq, MDB məkanında bioloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlər daxil olunmuşdu. Tədbir çərçivəsində, həmçinin informasiya və kommunikasiya texnologiyalarından cinayətkar məqsədlər üçün istifadənin qarşısının alınması sahəsində təşəbbüslər, faşizmin qəhrəmanlaşdırılmasının yolverilməzliyi və bir sıra digər məsələlərə dair məruzələr dinlənilib.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tədbirdə məruzə ilə çıxış edib, müzakirə olunan sahələr üzrə Azərbaycan Respublikasının müsbət təcrübəsi barədə məlumat verib. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, həmçinin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə təhlükəsizliyin təmin edilməsində ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə edib.

## Bahar Muradova: "Belarusa rəsmi səfər Azərbaycan Prezidentinin xarici siyasətinin növbəti uğurudur"



Belarusa rəsmi səfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasətinin növbəti uğurudur. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib.

Azərbaycanın və Belarusun strateji tərəfdaşlar olduğunu xatırladan Bahar Muradova qeyd edib ki, dövlətlərimiz bir çox vacib məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Bir çox məsələlərdə mövqe birliyi var. Bu səfər zamanı da bildirildi ki, hər iki dövlət bir-birinin maraqlarını qarşılıqlı şəkildə bütün müstəvilərdə qoruyur. Bunun nümunələri bu günə qədər göstərilib.

Milli Məclisin sədr müavini deyib ki, bu səfər həm müzakirə olunan məsələlər, həm imzalanan sənədlər, həm də hər iki prezidentin verdiyi bəyanatın ruhu ilə diqqəti cəlb etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən digər bu kimi münaqişələrin beynəlxalq hüququn prinsipləri, dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll olunmasının vacibliyinin vurğulanması onu göstərir ki, getdikcə dünyada bu mövqeni dəstəkləyən ölkələrin sayı çoxalır. Azərbaycan və Belarus da bu kimi məsələlərdə öndə gedən dövlətlərdir. Eyni zamanda, xalqlarımızın, müvafiq dövlət qurumlarımızın yaxşı münasibətlərinin, o cümlədən prezidentlərimizin möhkəm dostluğunun əlaqələrə çox müsbət təsir göstərdiyinin şahidi oluruq.

## XİN: "Paşinyanın bəyanatı onun ümumbəşəri humanizm prinsiplərini rədd edən biri olduğunu göstərir"



Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidməti Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyanın mətbuat konfransında əsirlərin dəyişdirilməsi məsələsinə münasibət bildirərək erməni əsirliyində saxlanılan iki azərbaycanlı mülki şəxsin Azərbaycana qaytarılmasına qarşı çıxdığını bildirməsi ilə əlaqədar açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Beynəlxalq humanitar hüquqda münaqişə tərəflərinin razılığı əsasında əsir və girovların dəyişdirilməsi məsələsi öz əksini tapır və beynəlxalq təcrübədə bu kimi mübadilədən geniş istifadə olunur. Azərbaycan beynəlxalq hüququn müvafiq konvensiyaları, eləcə də humanizm prinsiplərindən çıxış edərək hər iki tərəfdə saxlanılan girovların dəyişdirilməsi təklifi ilə çıxış etdiyi halda, Paşinyan səsləndirdiyi bəyanatı ilə əslində ölkəsinin üzvü olduğu Cenevrə Konvensiyaları və onun əlavə protokollarına zidd olaraq beynəlxalq öhdəliklərini kobudcasına pozduğunu etiraf etdi. Bu addım, həmçinin onun ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər zaman təşviq etdiyi humanitar fəaliyyətə məhəl qoymadığını göstərdi.

Ermənistanın baş naziri vəzifəsini icra edən Paşinyanın bu bəyanatı onun sivil davranışlardan tamamilə uzaq, sözdə sülh və barışıqdan bəhs edən, əməli olaraq isə ümumbəşəri humanizm prinsiplərini rədd edən biri olduğunu açıq şəkildə nümayiş etdirir. Bu bəyanat Paşinyanın sələfi Serj Sarkisyandan qətiyyən fərqlənmədiyini göstərir".

# Vladimer Çaçibaia: "Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir"

Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir. AZƏRTAC xəbər verir ki, bunu noyabrın 21-də Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Vladimer Çaçibaia Bakıda keçirilən üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib.

Gürcüstanın üçtərəfli birgə hərbi təlimlərdə fəal iştirak edəcəyini deyən V.Çaçibaia bildirib ki, bu təlimlər hərbi qulluqçularımız arasında təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda, hərbi təhsil və digər sahələrdə də fəal əməkdaşlıq edəcəyik. Regionda təhdidlərin artmasının müşahidə olunduğunu vurğulayan Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, səylərimizi birləşdirərik bu təhlükələri aradan qaldıra bilərik. Azərbaycan və Türkiyə hər zaman Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib, çətin günlərimizdə yanımızda olub. Biz bunu daim xatırlayırıq.



# DSX-nin rəisi Türkiyənin Baş Qərargah rəisi ilə görüşüb

***2018-ci ilin noyabr ayının 20-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, görüşdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Türkiyə Respublikasının Silahlı Qüvvələri arasında ikitərəfli əlaqələrin vəziyyəti yüksək qiymətləndirilib və əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikası ilə Türkiyə Respub-likası arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin qurulmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmət-lərini xüsusi qeyd edib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu münasibətlərin inkişafına ciddi önəm verərək həyata keçirdiyi dövləti siyasət sayəsində qarşılıqlı əlaqə-lərin ən yüksək səviyyədə olmasını vurğulayıb.

Söhbət əsnasında AR-in dövlət sərhədindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərdən qeyri-qanuni məqsədlərlə istifadə hallarının davam etdirilməsi qeyd olunub. Bununla yanaşı qeyri-leqal miqra-siya, qaçaqmalçılıq, narkotiklərin daşınması və digər transsərhəd cinayətkarlıq fəaliyyətləri ilə mübarizədə həyata keçirilmiş tədbir-lər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki ba-zanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və qazanılmış nai-liyyətlər barədə məlumat verilib.

Tərəflər arasında sərhəd mühafizəsinin möhkəmləndirilməsi, təcrübə və məlumat mübadiləsinin aparılması, birgə təlimlərin təş-kili, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və digər maraq do-ğuran məsələlər barəsində fikir mübadiləsi aparılıb. Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral da iştirak edib. Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

## Vladimir Solovyov: “Azərbaycanda Rusiya mədəniyyətinə, Rusiya KİV-lərinə böyük hörmət bəslənilir”




Noyabrın 21-də “Sputnik Azərbaycan” multimedia mətbuat mərkəzində Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovun ölkəmizə səfərinin yekunlarına həsr edilmiş mətbuat konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, mətbuat konfransında informasiya məkanında ikitərəfli əməkdaşlığın perspektivləri mövzusuna da toxunulub. Rusiya Jurnalistlər İttifaqının sədri başçılıq etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, 83 bölməsi olan Rusiya Jurnalistlər İttifaqının sıralarında 70 mindən çox jurnalist var. Bu, ölkənin jurnalistlər cəmiyyətinin elitasıdır. Rusiyadakı bütün jurnalistlərin təqribən 10-12 faizi bu ittifaqın üzvləridir. Rusiya Jurnalistlər İttifaqının sədrinin sözlərinə görə, ölkədə söz azadlığının müdafiəsi, jurnalistlərin peşəkar səviyyəsinin yüksək qalması üçün çox iş görülür. Rusiya Jurnalistlər İttifaqı Beynəlxalq Jurnalistlər İttifaqının üzvü olaraq, beynəlxalq aləmdə fəal iş aparır.

Vladimir Solovyov vurğulayıb ki, Azərbaycana səfər etməsinə və Prezident İlham Əliyev ilə görüşməsinə görə çox məmnundur. O, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu, Azərbaycanda Rusiya mədəniyyətinə, Rusiya KİV-lərinə böyük hörmət bəsləndiyini vurğulayaraq deyib: “Rusiyadakı oxucular, tamaşaçılar və dinləyicilər müasir Azərbaycanın həyatı barədə nə qədər çox məlumatlı olsalar, xalqlarımız arasında qarşılıqlı münasibətlər bir o qədər yaxşı olacaq”. V.Solovyov daha sonra deyib: “Noyabrın 19-da biz Azərbaycan Mətbuat Şurası ilə Rusiya Federasiyasının Jurnalistlər İttifaqı arasında Əməkdaşlıq haqqında Memorandum imzaladıq. Düşünürəm ki, bu, daha əhəmiyyətli, daha geniş əməkdaşlıq yolunda ilk addımdır”.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan və Rusiya jurnalistlərinin qarşılıqlı fəaliyyətinin və əməkdaşlığının vacib olduğunu qeyd edib.

## “Azərbaycan-Türkmənistan münasibətləri yüksək səviyyəyə qalxıb”



“Azərbaycan artıq xarici siyasətini həyata keçirdiyini bir daha ortaya qoyur. Yaxın dost ölkələrə rəsmi səfərlər cənab Prezidentimizin bir qayda olaraq proqramındadır”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, Türkmənistanla Azərbaycanı ta qədimdən vahid mədəniyyət, din, dil birləşdirir: “Türkmənistanın indiki prezidenti Qurbanqulu Berdiməhəmmədovun dövründə Azərbaycan-Türkmənistan münasibətləri daha yüksək səviyyəyə qalxıb. İki dövlət arasında elə bir sahə yoxdur ki, orada əməkdaşlıq mövcud olmasın. Hər iki ölkə bir-birinin maraqlarına hörmətlə yanaşır, birgə əməkdaşlığı həyata keçirirlər və iqtisadi layihələrdə iştirak edirlər. Bir sözlə əməkdaşlığın genişləndirilməsi üçün çox böyük potenial var. İki dövlətin yaxın dostluq münasibətləri, eyni zamanda Xəzər hövzəsində sülhün təmin edilməsi üçün çox vacib bir məsələdir. Nəzərdən qaçırmayaq ki, Azərbaycan və Türkmənistan türkdilli dövlətlərdir. Onların dost olması birgə fəaliyyət göstərməsinə xüsusi bir önəm verir. Heç bir şübhə yoxdur ki, cənab Prezidentimizin Türkmənistana səfəri yüksək səviyyədə keçəcək. Tərəflər birgə əməkdaşlığın yeni formalarını ortaya qoyacaqlar və dünyaya yaxın dostluğun bir daha nümunəsini göstərəcəklər”.

## Şəhid anası: Dövlətimiz tərəfindən şəhid ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğı göstərilir



Biz şəhid ailəsi olaraq həmişə dövlətimizin diqqət və qayğısını öz üzərimizdə hiss etmişik. Prezidentimizin şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsinə dair imzaladığı Fərman ölkəmizdə şəhid ailələrinə göstərilən diqqətin növbəti təzahürüdür. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş Naxçıvan şəhər sakini şəhid Rüstəm Nəcəfovun anası Şövkət Əhmədova deyib.

“Oğlum Rüstəm Nəcəfov 1993-cü ilin oktyabr ayının 6-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Böyük oğlum Əli isə Sədərəkdə gedən döyüşlərdə yaralanıb, ikinci qrup əlildir. Mən fəxr edirəm ki, övladlarım Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşublar, oğlum Rüstəm Vətən uğrunda canından keçərək, şəhidlik zirvəsinə ucalıb”, - deyən Şövkət Əhmədova bildirib ki, bu gün dövlətimiz şəhid ailələrinə böyük diqqət və qayğı ilə yanaşır. “Şəhid ailəsi kimi mən aylıq olaraq müavinət alıram, bayramlarda və əlamətdar günlərdə bizə bayram sovqatları təqdim olunur. Dövlət başçımızın şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsinə dair imzaladığı Fərman muxtar respublikamızda da uğurla icra olunur. Muxtar respublikada Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğı göstərilir. Mən öz adımdan və ailəmiz adından bu humanist addıma görə Prezidentimizə minnətdarlığımı bildirirəm”, - deyə şəhid anası vurğulayıb.

# YAP zəfərlər və qələbələr partiyasıdır!

## Yeni Azərbaycan Partiyasının yaranmasının 26 illiyi ilə bağlı tədbir keçirilib




***Dünən Yeni Azərbaycan Partiyasının 26-cı ildönümü münasibətilə partiyanın inzibati binasında tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov, Baş nazirin müavini Hacıbala Abutalıbov, YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, millət vəkilləri, partiya üzvləri və digərləri iştirak ediblər. Tədbirdə ilk çıxış edən YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması ölkə tariximizin ən mühüm hadisələrindən biridir: "Partiya ən uğurlu təşkilatlardan biri hesab oluna bilər. Partiya 26 ildir ki Azərbaycan xalqına xidmət edir. 26 illik təcrübəyə əsaslanaraq deyə bilərik ki, xalqımız partiyanın fəaliyyətindən razıdır. Ölkəmiz layiqincə öz vəzifələrini yerinə yetirir. Bu gün Azərbaycan dünyada hörmətlə xatırlanan ölkələr sırasındadır. Bu nailiyyətlərin əldə edilməsində Ulu Öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasətlə əlaqədardır partiya cəmiyyətin ən əzəmətli təşkilatı kimi özünü sübut edib. Bu gün siyasi ordu kimi özünü büruzə verməkdədir. Yaşlı əhalimizin hər 10 nəfərindən biri partiyada təmsil olunur".***



Ə.Əhmədov söyləyib ki, partiya sıralarında bu qədər vətəndaşın cəmlənməsi ölkə vətəndaşlarının mütləq əksəriyyətinin Ulu Öndər ideyalarına dərin inamından irəli gəlir: "Əgər vətəndaşlarımızın ürəyindən gələn bu hisslər olmasa idi 725 min insan partiya sırasında cəmlənməzdi. Bu, dəstəyin göstəricisidir. Bu gün Azərbaycanda hər hansı siyasi hadisə YAP-ın iradəsindən kənarda mövcud deyil. Partiyanın mövcudluğu sabitliyin əmin-amanlığın prinsiplərini özündə ehtiva edir. Bu siyasətə xidmət edən vətəndaşlarımız qəti şəkildə əmin olublar ki, partiyanın mövcudluğu əmin-amanlıq, inkişaf, əhalinin rifah halının yaxşılaşdırılması, mövqelərimizin möhkəmlənməsi, müasirləşməsi, ölkəmizin dünyada layiqli yer tutub bu yeri dərinləşdirilməsindən ibarətdir. Partiya ətrafında toplaşan əzəmətli güc bu istiqamətdə əlindən gələni etməyə hazırdır".

Daha sonra çıxış edən Baş nazirin müavini Hacıbala Abutalıbov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinə xas olan xüsusiyyətləri İlham Əliyev öz əməli fəaliyyətində yüksək peşəkarlıqla həyata keçirir. Onun sözlərinə görə, müstəqil dövlətimizin başçısı İlham Əliyev ölkə iqtisadiyyatının tərəqqisinə xidmət edən sosial-iqtisadi proqramların gerçəkləşməsi ilə yanaşı, milli mənəviyyatımızın təməl sütunlarından sayılan mədəniyyət siyasətinin hərtərəfli inkişafına da mühüm əhəmiyyət verir. H.Abutalıbov əlavə edib ki, böyük xilaskar, Ulu Öndər Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlərdən biri ölkəmizi əbədiyaşar məkana çevirmək məqsədi ilə Şərq dövlətçilik ənənələrinə xas olan şəkildə öz siyasi məktəbini yaratması olub: "Ulu Öndərimiz bu siyasi məktəbin ən parlaq, layiqli nümayəndəsi Prezident İlham Əliyevi müasir Azərbaycanın bugünkü və gələcək inkişafı naminə hazırlayaraq siyasi arenaya çıxara bilib".

Baş nazirin müavini əlavə edib ki, əgər oğul atasından sonra onun millət və dövlət uğrundakı işini ləyaqətlə davam etdirərsə, bunu varisin övladlıq borcu adlandırmaq olar: "Güclü azərbaycançılıq ideologiyasının əsası Heydər Əliyev tərəfindən qoyulub. Ölkəmiz Azərbaycanın yeni lideri, Prezident İlham Əliyevə həvalə olunduqdan sonra O, qısa zaman kəsiyində, yüksələn xətt üzrə ictimai həyatımızın bütün sahələrini əhatə edən uğurlu və məqsədyönlü islahatlar həyata keçirib. Prezident İlham Əliyev müasir Azərbaycanda baş verən modernləşmə proseslərini düzgün məcraya yönəldərək yeni innovasiya və informasiya texnologiyaların tətbiqi prosesini daxili və qlobal mühitin tələblərinə uyğun səviyyədə gerçəkləşməsinə münbit şərait yaradıb. Müstəqil Azərbaycanın milli maraqlarını üstün tutan Prezident İlham Əliyevin dünyada baş verən mürəkkəb hadisələri nə-












zərə alaraq problemlərin düzgün həlli yollarını böyük ustalıqla tapır".

Azərbaycanının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti haqqında fikirlərini bildirən H.Abutalıbov söyləyib ki, Mehriban xanım Əliyeva bir evin xanımı olmaqla yanaşı, layiqli Azərbaycan vətəndaşıdır: "Mehriban xanım Əliyevanın həyata keçirdiyi silsilə tədbirlər təqdirəlayiq hal kimi dəyərləndirilməlidir. Mehriban xanım Əliyevanın millət, Vətən naminə gördüyü işlər nurlu ömür salnaməsinin parlaq səhifələridir. Azad Azərbaycanın dünəni, bu günü və gələcəyi naminə dövlət quran üç böyük dahi insan haqqında söz yazmaq məsuliyyətli, çətin olsa da, bir o qədər də şərəflidir. Çünki sağlam düşüncəli Azərbaycan vətəndaşı bu böyük insanlar qarşısında olan vicdan borcunu dərk edir, Vətən eşqi ilə yaşamağı onlardan öyrənib, öyrənir və öyrənəcək. Azərbaycanın gələcəyi xoşbəxt və firavandır. Çünki ölkəmizə Ümummilli liderin siyasətini uğurla davam edən Prezident İlham Əliyev rəhbərlik edir. Heydər Əliyev dühasından bəhrələnən partiya Sədrinə eşq olsun!".

Tədbirin davamında çıxış edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin sədr müavini Bahar Muradova deyib ki, 26 il bundan əvvəl Naxçıvanda təsis olunan və bu ayın bu günündə yaranan Yeni Azərbaycan Partiyası vasitəsilə bütün bacarığımızı göstərmək şansı qazandığımız siyasi təşkilatdır".

O bildirib ki, Yeni Azərbaycan Partiyası Cənubi Qafqazda ən uzun ömürlü və iqtidarda olan siyasi partiyadır: "Bu tarixə nəzər saldıqda əvvələ qayıtmalı oluruq. Çünki o dövrdə siyasi sabitliyin pozulması, Azərbaycana qarşı tətbiq olunan planlar zamanında yaranan partiyanın üzərinə böyük öhdəliklər düşürdü. Partiya bu problemləri həll etmək kimi öhdəliklərə malik idi. O zaman yaranan partiyalar bir şəxsin ətrafında birləşmədən uzağa gedə bilmədilər. Onlar nəinki problemlərin öhdəsindən gələ bilmədilər, əksinə, Azərbaycanı uçuruma yuvarladılar".

Xalqın müraciəti əsasında Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdığını xatırladan B.Muradova söyləyib ki, vaxtilə Ulu Öndərə müraciət edənlərə təşəkkür edirik: "Çünki bu addımı atmaqla azad Azərbaycanın yaranması naminə xalqı arxanızca apara bildiniz".

O qeyd edib ki, Partiyanın qurucusu Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasi kurs əldə olunan nailiyyətlər, eləcə də bu siyasətin uğurlu davamı nəticəsində ölkəmizi daha da inkişafa aparan Prezident İlham Əliyevin fəaliyyətinin müsbət nəticələrini görməkdəyik: "Bu gün qadınlarımız partiyanın demək olar ki, yarısını təşkil edir. Qadınlarımız partiyanın sıralarının genişlənməsində öz töhfələrini verməkdədir. Bu gün I vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətini Azərbaycan qadının təmsilçisi kimi dəyərləndirir, Onun fəaliyyətini yüksək qiymətləndirik".

B.Muradova qeyd edib ki, bu gün partiyanın üzvləri öz istəkləri ilə partiyaya qoşulurlar: "Bu gün partiyada gənclərimizin sayı artmaqdadır. Partiyamız ən müxtəlif səviyyələrdə təmsil olunur. Getdikcə xalqın içərisində nüfuzumuz artır. Yeni Azərbaycan Partiyasının həm xalq içərisində nüfuzu, həm də partiyanın namizədinə olan inamı, etimadı artır. Partiya yaranandan müxtəlif sui qəsdlər, separatçılıq, bölücülük istiqamətində cəhdlər olub ki, partiya üzvləri bu problemlərin qarşısında qətiyyətlə dayanaraq onların qarşısını alıb. Partiyamızı qarşıda duran hədəflərə çatdırmalıyıq. Bu illər ərzində ümumi fəaliyyətimizin çox uğurlu nəticələri var ki, bu nəticələr bütün sahələrdə özünü göstərməkdədir. Partiya bir çox ölkələrin tanınmış partiyaları ilə əlaqələr qurub, birgə fəaliyyətlərdə öz töhfəsini verməkdədir. Azərbaycanda 25 il iqtidarda olan 26 yaşlı partiya xalq tərəfindən dəstəklənir, bu ölkəyə inkişaf, çiçəklənmə gətirir. YAP ilə Azərbaycanın bayrağı daimi dalğalansın".

Daha sonra YAP Gənclər Təşkilatının üzvü Mehman Musayev ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışıb.

# Yeni Azərbaycan Partiyası - xalqın partiyası

## *Bölgələrdə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbirlər keçirilib*







### Binəqədi

Dünən YAP Binəqədi rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdən öncə, iştirakçılar YAP Binəqədi rayon təşkilatının inzibati binası önündə ucaldılmış Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər.

Tədbir Yeni Azərbaycan Partiyasının və rayon təşkilatının fəaliyyətindən bəhs edən videoçarxın nümayişi ilə başlanıb.

Tədbirdə giriş sözü ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov qeyd edib ki, YAP-ın yaradılması müstəqil Azərbaycan tarixində mühüm bir hadisədir. Ulu Öndərimiz Heydər Əliyev qüdrətinin məhsulu olan YAP-ın yaradılması tarixi zərurət idi. R.Göyüşov bildirib ki, YAP-ın qələbələrinin kökündə Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, Onun tərəfindən müəyyənləşdirilmiş strateji xətt, inkişaf strategiyası dayanır.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Eldar İbrahimov bildirib ki, Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan YAP-ın möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır: "Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir".

Millət vəkili Kamaləddin Qafarov çıxışında ötən 15 ilə yaxın bir müddət ərzində, Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə əldə edilmiş uğurlara nəzər salıb. Millət vəkili bildirib ki, dövlət başçısının müəllifliyi və rəhbərliyi ilə ölkəmiz irimiqyaslı beynəlxalq layihələrə uğurla imza atıb.

YAP-ın Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxışında bildirib ki, dünənin, bu günün partiyası kimi gələcəyə böyük inamla addımlayan Yeni Azərbaycan Partiyası sözlə əməl birliyini, monolitliyini daim qoruyur, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir: "Bu gün 725 mindən artıq insanı sıralarında birləşdirən partiya, dünya təcrübəsində analoqu olmayan bu mühüm uğura da imza atıb ki, yaranmasından 7 ay sonra iqtidar partiyası kimi fəaliyyətini davam etdirir, 26 illik tarixini qələbələr və uğurlarla zənginləşdirir".

Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev tədbirdə çıxış edərək, diqqətə çatdırıb ki, Ümummilli Liderimiz Heydər Əliyevin zəkasının məhsulu olan Yeni Azərbaycan Partiyasının yaradılması müasir müstəqil Azərbaycanın tarixində bir dönüş nöqtəsi kimi yadda qaldı: "İndi hər kəsə aydındır ki, o zaman bu partiya yaranmasaydı, Ulu Öndərimiz Heydər Əliyev hakimiyyətə gəlməsəydi, yəqin ki, ölkəmiz indiki kimi olmayacaqdı. 26 ildir ki, Yeni Azərbaycan Partiyası inkişaf yolumuza məşəl tutaraq, ölkəmizi uğurlara aparmaqdadır. Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını, Cənab Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev uğurla həyata keçirir və bunun nəticəsidir ki, bu gün ölkəmiz regionda güc amilinə, Avropada və dünya birliyində söz sahibinə çevrilib. Bütün bu uğurların əldə edilməsində, sözsüz ki, Cənubi Qafqazın ən nüfuzlu partiyası olan Yeni Azərbaycan Partiyasının öz yeri, öz payı var".

Tədbirdə, həmçinin, YAP Binəqədi rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup partiya fəalı YAP-ın yaradılmasının 26-cı ildönümü münasibətilə Fəxri Fərmanla təltif edildilər. YAP sıralarına yeni üzv qəbul edilmiş bir qrup gəncə partiyaya üzvlük vəsiqəsi təqdim edilib.

Daha sonra tədbir bədii hissə ilə davam etdirilib. Rayonun istedadlı gənclərinin ifasında YAP-a və vətənpərvərlik mövzusuna həsr olunmuş mahnılar və şeirlər səsləndirilib.

### Qaradağ

Dünən YAP Qaradağ rayon təşkilatının və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Lökbatan qəsəbəsində Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları, ilk öncə Ulu Öndərin abidəsi önünə gül-çiçək dəstələri düzərək, hörmət və ehtiramlarını bildiriblər. Tədbirdə Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov çıxış edərək, 1990-cı ilin əvvəllərində Azərbaycanın dərin böhran vəziyyətində olduğunu, bu böhrandan xalqı və dövləti Ulu Öndər Heydər Əliyevin çıxardığını, xalqın ziyalılarının müraciəti ilə 1992-ci il 21 noyabr tarixində Azərbaycanın taleyində çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yarandığını bildirib: "Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixin başlanğıc nöqtəsi sayılır. Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla da Azərbaycanın tarixində yeni dövr başladı". S.Mikayılov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 26 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar və bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar.

Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov partiyanın yaranma tarixinə nəzər salaraq, o dövrün çətinliklərindən bəhs edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası ölkəmizin, xalqımızın həyatını kökündən dəyişməklə yanaşı, Azərbaycanın həyatında yeni mərhələnin əsasını qoyub.

A.Hüseynov onu da qeyd edib ki, ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib: "Yeni zirvələr fəth edən Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Xalqımız Azərbaycanın son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçməsini, bu hərtərəfli və dinamik inkişafın bütün sahələri əhatə etməsini çox yüksək qiymətləndirir. Azərbaycan vətəndaşları ölkəmizin inkişafının, sabitliyinin davam etməsini istəyir, iqtidarın həyata keçirdiyi siyasətə mütləq inam və etimadlarını ifadə edirlər. Xalq Azərbaycanda inkişaf və sabitliyin davamlı olması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir".

Digər çıxış edənlər də Yeni Azərbaycan Partiyasının cəmiyyətimizdəki mövqeyi, onun yerli strukturlarının fəaliyyəti haqqında fikirlərini bildiriblər.

Sonda YAP Qaradağ rayon təşkilatının bir qrup fəal üzvünə, eyni zamanda, yubileyi olan partiya üzvünə rayon icra hakimiyyətinin Fəxri fərmanları, həmçinin, partiyaya yeni üzv olanlara partiya vəsiqələri təqdim olunub.

### Oğuz

Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə Oğuz rayonunda tədbir keçirilib. Tədbirdə partiya fəalları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov 26 il bundan öncə, Yeni Azərbaycan Partiyasının təsis edildiyi zaman Azərbaycanın ictimai-siyasi mənzərəsinə nəzər salıb: "Ölkədə xaos, hərc-mərclik hökm sürür, əhali arasında sabaha ümidsizlik və ruh düşkünlüyü yaranmışdı. Belə bir zamanda, ölkə əhalisinin əksər hissəsinin son ümidi o zaman Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevə dikilmişdi. Hər zaman olduğu kimi, bu dəfə də Ulu Öndər dövlətin ağır günündə xalqın təkidli çağırışlarına biganə qalmadı. Ümummilli Lider ölkə ziyalılarının çağırışına səs verdi və Yeni Azərbaycan Partiyası yarandı. 1992-ci ildə müxalifətdə olan partiya 1993-cü ilin iyulunda hakimiyyətə gəldi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev, ilk növbədə, ölkədə hökm sürən xaos və anarxiyanın qarşısını alıb, vətəndaş qarşıdurmasını aradan qaldırdı".

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyası - xalqın partiyası

## *Bölgələrdə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbirlər keçirilib*



**Əvvəli-Səh-10**

S.Məhərrəmov bildirib ki, bu gün Azərbaycanın qazandığı uğurlarda Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri danılmazdır və öz sıralarında 725 mindən artıq üzvü birləşdirən YAP Ulu Öndərin parlaq ideyalarının daşıyıcısı kimi, cəmiyyətdə öz aparıcı rolunu gündən-günə möhkəmləndirməkdədir. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Möhtərəm Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib.

Tədbirdə çıxış edən Oğuz rayon icra hakimiyyətinin başçısının müavini Yusif Naxçivanski bildirib ki, dövlətimizin keşiyində duran YAP-ın müstəqil Azərbaycanın siyasi tarixində misilsiz rolu var. Ötən müddət ərzində, partiyamız dövlətimiz və cəmiyyətimizin inkişafına misilsiz və layiqli töhfələr verib. Bu gün YAP Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında gündən-günə inkişaf edir. Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının üzvləri, bütövlükdə Azərbaycan xalqı Ulu Öndərimiz Heydər Əliyevin siyasi xəttinə və siyasətinə sədaqətli dönməzdirlər.

Tədbirdə YAP Oğuz rayon təşkilatı gənclər birliyinin şura üzvü Cavid Həmidov, rayon təşkilatı qadınlar şurasının üzvü Aliyə Osmanova və Heydər Əliyev Mərkəzinin direktoru, rayon təşkilatı qadınlar şurasının sədr müavini Mehriban Heydərova çıxış ediblər.

Tədbirin sonunda partiya sıralarına yeni qəbul olunmuş gənclərə partiya vəsiqələri təqdim olunub.



### Cəlilabad

Dünən YAP Cəlilabad rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cü ildönümünə həsr olunmuş tədbir keçirib.

Tədbir iştirakçıları, ilk öncə, Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda ucaldılan abidəsi önünə tər gül-çiçək dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

YAP Cəlilabad rayon təşkilatının akt zalında davam edən tədbiri giriş sözü ilə açan təşkilatın sədri Mirsüleyman Mirxaslı Yeni Azərbaycan Partiyasının 26 il bundan əvvəl Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yarandığını bildirib və bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib.

M.Mirxaslı Ulu Öndər Heydər Əliyevin gərgin əməyi sayəsində yaranan Yeni Azərbaycan Partiyası qısa müddətdə təşkilatlandığını və güclü siyasi qüvvəyə çevrildiyini, yaranışından 7 aya yaxın bir müddətdə iqtidar partiyasına çevrildiyini, hazırda partiya üzvlərinin sayının 725 min nəfərdən çox olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə çıxış edən YAP rayon təşkilatı sədrinin müavinləri Rahib Kərimov, Hafiz Cavadov, rayon təşkilatı qadınlar şurasının sədri Fərqanə Məmmədova, rayon təşkilatının şura üzvləri Yeganə Rzayeva, Qərənfil Abuzərova, Malik Əliyev, Etibar Sadığov, rayon təşkilatı NTQ-nin sədri Varid Əsgərov partiya veteranları Ədalət Əsgərov, Əliheydər Əsədov, Məhərrəm Nağıyev, Ərəstun Kərimov və başqaları YAP üzvü olduqlarından qürur duyduqlarını, bundan sonra da ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləyəcəklərini və bütün siyasi proseslərdə fəal iştirak edəcəklərini bildirdilər.

### Laçın





Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 26-cı ildönümü ilə bağlı YAP rayon təşkilatı Lacın rayon İH ilə birlikdə tədbir kecirib. Tədbir laçınlı məcburi köçkünlərin məskunlaşığı Taxta-körpü ərazisində rayon təşkilatının konfrans salonunda baş tutub. Tədbir iştirakcıları, ilk öncə, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzüblər. Daha sonra Heydər Əliyev Parkında ağacəkmə aksiyası kecirilib. Tədbirdən öncə, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükütla yad edilib.

Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar İlyasov açaraq qeyd edib ki, bu gün üzərimizdə üzvlük vəsiqəsini fəxrlə daşıdığımız Yeni Azərbaycan Partiyasının yaranmasının 26 il tamam olur. "Bu münasibətlə partiyamızın Sədri, Cənab Prezidentimiz İlham Əliyev başda olmaqla, partiyanın İdarə Heyəti və Siyasi Şuranın üzvlərini, İcra Katibliyinin rəhbərliyini, partiyamızın 700 mindən çox üzvünü, təəssübkeşlərini təbrik edirəm" deyə qeyd edən İ.İlyasov partiyanın quruculuq tarixi və keçdiyi şərəf yolu barədə fikirlərini çatdırıb.

Tədbirdə YAP Laçın rayon təşkilatının gənclər birliyinin sədri Vüsal Həsənov çıxış edərək bildirib ki, YAP siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə gəldiyini qeyd edib. "Bu gün Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu tarixi ənənələr Yeni Azərbaycan Partiyası tərəfindən sədaqətlə həyata keçirilməkdədir. Bu tarixi reallığı müdrik Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev qətiyyətli, dönməz siyasəti ilə gerçəkləşdirir" deyə natiq qeyd edib.

Tədbirdə digər cıxış edənlər Murad Hüseynov, Tahir Bayramov, Əmiraslan Məmmədov və başqaları xalqın arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gələrək, vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyasının ölkəmizin siyasi həyatına yeni nəfəs verdiyini, qurtuluş və tərəqqinin simvoluna çevrildiyini bildiriblər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası Laçın rayon təşkılatının fəaliyyətində yaxından iştiraklarına görə fərqlənən YAP fəallarına Fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

### Samux





Dünən Yeni Azərbaycan Partiyasının Samux rayon təşkilatının akt zalında partiyanın yaradılmasının 26-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov Azərbaycan dövlətçiliyinin inkişafında partiyamızın xidmətlərindən danışaraq qeyd edib ki, Ulu Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub: "Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza və dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq, Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur".

Tədbirdə Samux rayon İH başçısı Alı Qocayev çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının güclü siyasi təşkilat kimi formalaşması, ölkəmizin içtimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması dövrün məntiqi reallığı idi: "Ulu Öndər Heydər Əliyev siyasi baxışlarından və siyasi fəlsəfəsindən səmərəli şəkildə bəhrələnməsi partiyanın qələbələr qazanmasını şərtləndirirdi. Bu gün də YAP Möhtərəm Prezidentimiz, partiyamızın Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiyamız ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir. Ulu Öndərimiz Heydər Əliyevin və Cənab Prezidentin siyasətinə sadiq olan Samux sakinləri bundan sonra da bu yola sədaqətlə xidmət göstərəcəklər".

Tədbirdə YAP Samux rayon təşkilatının qadınlar şurasının sədri Kəmalə Xəlilova, Zazalı kənd tam orta məktəbin direktoru Ceyhun Mürsəlzadə və gənclər birliyinin fəal üzvü Qurban Həsənov çıxış edərək, partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında fikirlərini bildiriblər.

Tədbirin sonunda ictimai-siyasi aktivliyi ilə seçilən bir qrup partiya üzvünə Fəxri fərmanlar və hədiyyələr, YAP sıralarına yeni qoşulan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

**Ardı Səh.12**

# Yeni Azərbaycan Partiyası - xalqın partiyası

## Bölgələrdə Yeni Azərbaycan Partiyasının 26-cı ildönümünə həsr olunan tədbirlər keçirilib



Əvvəli-Səh-11

### Astara

Astara rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 26-ci ildönümü ilə bağlı tədbir keçirilib. Tədbir iştirakçıları Ulu Öndərin YAP Astara rayon təşkilatının inzibati binasındakı abidəsi önünə tər gül dəstələri düzərək, Ümummilli Liderin əziz xatirəsini yad ediblər.

YAP Astara rayon təşkilatının akt zalında davam edən tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev açaraq, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 26 illik tarixi yoldan, partiyanın hakim siyasi təşkilat kimi fəaliyyəti dövründə Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, sosial-iqtisadi və siyasi uğurların bu gün partiyanın Sədri, Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasəti nəticəsində yeni-yeni uğurlara yol açmasından danışıb.

Q.Ağayev vurğulayıb ki, nə qədər müstəqil Azərbaycan var, Yeni Azərbaycan Partiyası da yaşayacaq: “Ulu Öndər Heydər Əliyevin müdrikcəsinə dediyi kimi, “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır”. Partiyanın dünəni zəngin və şərəflidir. Partiyanın bu günü fəal quruculuq və xalqa xidmət qayğılarından ibarətdir. Biz indi gələcəyə xidmət edirik. Aydın proqramımız, güclü rəhbərimiz və partiyamızın Sədri Cənab İlham Əliyevin ətrafında sıx birləşərək, iri addımlarla irəliləyirik”.

Tədbirdə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov çıxış edərək, partiyanın şərəfli mübarizə tarixindən, Ümummilli Lider Heydər Əliyevin doğma xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıb: “YAP-ın yaranması mürəkkəb və çətin bir dövrə təsadüf edib. Yüz minlərlə insan Ulu Öndər Heydər Əliyevin Azərbaycana qayıdışını gözləyirdi. Dahi Öndər Heydər Əliyevi hakimiyyətə çağırmaqla Azərbaycan xalqı ölkəmizi parçalanmaqdan və vətəndaş müharibəsindən qorudu. Eyni zamanqda, YAP-ın xalqın ən inamlı partiyası olmasını şərtləndirən digər vacib amil partiya sıralarına Azərbaycanın sağlam və intellektual gənclər ordusunun axınıdır. Bütün bunlar, eyni zamanda, təməli 26 il öncə qoyulmuş Yeni Azərbaycan Partiyasının apardığı siyasətin təməllərindən biridir.”

Tədbirdə Astara rayon Ağsaqqallar Şurasının sədri Hamlet Əliyev, YAP Astara rayon təşkilatı gənclər birliyinin sədri Tural Eyvazov, RİH-ın məsul işçisi Elnur Rəsulov, rayon Təhsil Şöbəsinin məhsul işçisi Vüqar Şahbazov, Astara Pedaqoji Kollecinin müəllimi Leyla Əliyeva, MRX həkimi Aytən Şiriyeva Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, əldə etdiyi uğurlardan bəhs ediblər.

Vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatının bütün sahələrində gördüyü işlər artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində, məhz Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır. Sonda YAP sıralarına yeni qoşulan gənclərə partiya üzvlük vəsiqələri və fəal gənclərə fəxri fərmanlar təqdim olunub.

### Qazax

Dünən YAP Qazax rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər.

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov tədbiri açaraq, Yeni Azərbaycan Partiyasının yaradılması və təşkilatlanması haqqında və gördüyü işlər barədə geniş məruzə ilə çıxış edib.

Tədbirdə Qazax rayon İH-in başçısı Rəcəb Babaşov respublikamızda və rayonumuzda görülən genişmiqyaslı işlərdən ətraflı danışıb və qeyd edib ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil və müasir Azərbaycanın inkişafında YAP-ın yeri və rolu əhəmiyyət daşıyır.

Tədbirdə YAP Qazax rayon təşkilatının idarə heyətinin üzvü Novruz Abdullayev, YAP Qazax rayon təşkilatının şura üzvü Nizaməddin Babanlı, YAP fəalı Vüqar Eyyubov, YAP Qazax rayon təşkilatının şura üzvləri Nəsibə Tağıyeva və Səfurə Rəhimova, Qazax rayon icra hakimiyyəti başçısı aparatının məsul işçisi Kənan Hüseynli, YAP Qazax rayon təşkilatı sədrinin müavini Məmməd Yusifov çıxış edərək, təbriklərini çatdırıblar.

### Yevlax







Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü Yevlax rayonunda da sevinc və fəxarət hissləri ilə qeyd olunub. Partiyanın rayon təşkilatı bu münasibətlə bayram tədbiri təşkil edib. Əvvəlcə rayon rəhbərliyi və partiyanın fəalları Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzi meydanındakı abidəsini ziyarət edərək, önünə gül-çiçək dəstələri düzüblər.

İldönümü münasibətilə keçirilən tədbir Yevlax rayonunun Şahmat Məktəbinin akt zalında rəsmi və bədii hissə ilə davam etdirilib. Dövlət himni səsləndirilib və sonra “Yeni Azərbaycan Partiyası 26 il uğurla” adlı videoçarx nümayiş olunub. Tədbirdə partiya veteranlarından olan Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının sədr müavini Vahid Quliyev açaraq, siyasi həmfikirlərini ildönümü münasibətilə təbrik edib. O, Yeni Azərbaycan Partiyasının keçdiyi 26 illik şərəfli yoldan söz açaraq bildirib ki, Azərbaycan üçün çox ağır zamanlarda və zərurətdən yaranan Yeni Azərbaycan Partiyası, sözün həqiqi mənasında, xilaskar siyasi təşkilatdır: “Ulu Öndər Heydər Əliyev dühasından güc-qüvvət alan bu partiya, Ulu Öndərin sağlığında olduğu kimi, bu gün dövlətimizin başçısı İlham Əliyevin Sədrliyi ilə də öz uğurlu fəaliyyətini davam etdirir”.

Tədbirdə YAP Yevlax şəhər təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova çıxış edərək yevlaxlı qadınların partiyanın fəaliyyətindəki rolundan danışaraq bildirib ki, bu gün gözəlliyi ilə fəxr etdiyimiz şəhərimizin yenidən qurulmasında qadınlarımızın da əməyi böyükdür: “Fəxrlə demək olar ki, yevlaxlı xanımlar rayon həyatının bütün sahələrində nümunəvi iştirakları ilə seçiliblər. Qəlbi Vətən üçün, dövlət üçün çarpan belə xanımları bugünkü məclisdə təmsil etməkdən məmnunam”.

Tədbirdə çıxış edən YAP Yevlax rayon təşkilatı sədrinin müavini - aparat rəhbəri Əli Quliyev, ilk növbədə, YAP Yevlax rayon təşkilatının sədri, millət vəkili İlham Məmmədovun və Yevlax İH-nin başçısı Qoca Səmədov adından tədbir iştirakçılarını təbrik edib. O, çıxışında Yeni Azərbaycan Partiyasının üzvü olmağın mənəvi haqlarından danışıb: “Vətəni sevirsənsə, onun inkişafında rolun varsa, Azərbaycanı uğurlu bir gələcəyə aparan partiyanın Sədri, dövlətimizin başçısı Cənab İlham Əliyevin siyasətini bəyənir və dəstəkləyirsənsə, bu xalqın, millətin yolunda aşa bilməyəcəyin bir əngəl tanımırsansa, sən Yeni Azərbaycan Partiyasının üzvüsən. Bu gün Azərbaycanın sahib olduğu bütün uğurların müəllifi Yeni Azərbaycan Partiyasıdır. Belə bir partiyanın sıralarında olmaq hər kəs üçün şərəfdir. Yeni Azərbaycan Partiyası böyük bir ideoloji ailədir və bizi birləşdirən dəyərdir. Bizim hər birimiz həyata Yeni Azərbaycan Partiyasının gözü ilə baxırıq. Bilirik ki, bu baxış Ulu Öndər Heydər Əliyev baxışlarıdır. Biz haqq yolundayıq. Ölkə Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası bizi işıqlı xoşbəxt gələcəyə aparacaqdır”.Sonra Yeni Azərbaycan Partiyasının ictimai-siyasi həyatında xüsusi xidmətləri olan bir qrup partiya üzvünə YAP Yevlax rayon təşkilatının fəxri diplomu təqdim olunub. Bayram tədbirinin bədii rəhbəri, əməkdar mədəniyyət işçisi olan “Kür” instrumental ansamblı, öz musiqi töhfələri ilə daha da şən və maraqlı edib.

### Tərtər





Dünən Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatında partiyanın yaradılmasının 26-ci ildönümü münasibətilə tədbir keçirilib.

Öncə, tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzi meydanında ucaldılan abidəsi önünə gül-çiçək dəstələri düzərək, xatirəsini yad ediblər.

Rayon Gənclər Mərkəzinin iclas zalında davam edən tədbirdə YAP Tərtər rayon təşkilatının sədri Ramih Şabanov Yeni Azərbaycan Partiyasının çətin şəraitdə yaradıldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb: “Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Xalq belə bir şəraitdə ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə və vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar “Səs” qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi”.

R.Şabanov çıxışında onu da vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 26 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə, öz seçimlərində yanılmayıblar: “Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiya hüquqi- demokratik dövlət quruculuğuna öz töhfələrini verib. Bu gün Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir və bu gün 700 mindən çox insanı sıralarında birləşdirən YAP xalqın ən inamlı partiyasıdır”.

Tədbirdə digər çıxış edənlər diqqətə çatdırıblar ki, Prezident İlham Əliyevin doğma, müstəqil ölkəmizin inkişafı, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər və onun real nəticələri partiyanın hər bir üzvü qarşısında daha məsul vəzifələr qoyur.

Sonra tədbir iştirakçıları Yeni Azərbaycan Partiyasının 26-cı ildönümü ilə bağlı Tərtər yolu ətrafında 1500-ə yaxın ağac əkiblər.

# "Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya"

## Əngəlləri uğura çevirən insanlara həsr olunur

***Kimisi üçün bu yer yeni bir həyatın başlanğıcıdır. Başqa bir gənc üçün bu məkanla tanışlıq yenidən doğuşdur, dönüş nöqtəsidir, digər birisinə görə, arzularına doğru gedən yolun əvvəlidir. Qısası, hərə bir ümidlə, min arzu ilə bura üz tutur.***

Böyük darvazadan həyətə daxil olarkən ətrafı bürüyən yaşıllıq, səliqə ilə tikilmiş, gözoxşayan bina istirahət mərkəzini xatırladır. Binanın ətrafında, yaşıllıqların arasındakı müxtəlif fiqurlar, heykəlciklər buranı daha da maraqlı edir.

Əslində isə, sözügedən məkan Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə-Reabilitasiya Mərkəzidir.

Bakı şəhəri, Sabunçu rayonu, Yeni Ramana qəsəbəsində yerləşən sosial xidmət müəssisəsi 1990-2011-ci illər ərzində Gənc əlillərin əmək və istirahət evi kimi fəaliyyət göstərib. 2011-ci ildən fəaliyyətini təkmilləşdirmək məqsədilə təmirə dayanıb və dövlət tərəfindən əsaslı təmir olunaraq, 2013-cü ilin dekabrında Cənab Prezident İlham Əliyevin iştirakı ilə açılıb.

Müəssisənin direktoru Rəhilə Həsrətovanın sözlərinə görə, mərkəzə qəbul edilən gənclər əvvəlcə psixoloji testdən keçirilir, onların ayrı-ayrı peşələr üzrə istəkləri, əmək vərdişi nəzərə alınır, qabiliyyətləri yoxlanılır. Rəy veriləndən sonra həmin gənc ona uyğun peşə üzrə istiqamətləndirilir: "Mərkəzə fiziki imkanları məhdud və yüngül əqli qüsurlu xəstəliyi olan 15-29 yaş arası gənclər qəbul olunur. Burada gənclərin kompyuter istifadəçisi, dərzilik, qadın və kişi bərbəri, ağac üzərində oyma, toxuculuq, rəssamlıq, xalçaçılıq, aşpaz köməkçisi və digər peşələr üzrə peşə hazırlığı təmin edilir. Eyni zamanda, mərkəzdə dizayn, musiqi və teatr dərnəkləri, paralimpiya üzrə idman məşqləri, stolüstü oyunlar, mədəni-kütləvi tədbirlər, ekskursiya və gəzintilər təşkil olunur".

Mərkəz rəhbəri bildirib ki, müəssisə 200 nəfərlikdir: "Gənclər burada peşəyə yiyələndikləri müddətdə mərkəzin yataqxanasında yaşayırlar. Gün ərzində 3 dəfə qidalanma ilə yanaşı, onlara psixoloji dəstək və stomatoloji xidmətlər göstərilir, ilkin tibbi yardım, həmçinin fizioterapevtik müalicə alırlar, zərurət olduğu halda müvafiq xəstəxanalarda müayinələrin aparılması təşkil edilir".

### 5 il ərzində 1600 gənc peşə-reabilitasiyasına cəlb olunub

Kursu bitirən gənclər DSMF nümayəndələrinin iştirakı ilə imtahandan keçir, onların məşğulluq və özünüməşğulluq səviyyəsinin yetişkənliyi müəyyənləşdirilir. Peşə hazırlığı üzrə imtahandan müvəffəqiyyətlə keçən gənclərə şəhadətnamə təqdim olunur. Onların adları isə yerli məşğulluq orqanlarına təqdim edilir. Bu yaxınlarda keçirilən özünüməşğulluq layihələrinə 15-ə yaxın əlilliyi olan gənc cəlb olunub.

Ümumilikdə isə, son 5 il ərzində mərkəzdə 1600 nəfərə qədər sağlamlıq imkanları məhdud gənc peşə-reabilitasiyasına cəlb olunub, onlardan 642 nəfəri öyrəndikləri peşələr üzrə imtahan verərək şəhadətnamə alıblar.

Bundan əlavə, paralimpiyanın boccia, avarçəkmə, qılıncoynatma, güllə atıcılığı, ağırlıq qaldırma idman növləri üzrə təlim-məşqləri keçən fiziki məhdudiyyətli idmançılara təlim məşqləri üçün bütün şərait yaradılıb, onlara psixoloji, fizioterapevtik və hər növ xidmətlər göstərilir.

Hazırda mərkəzdə sağlamlıq imkanları məhdud 128 gəncə xidmət göstərilir.



### Gənclərin əmək bazarına inteqrasiyası ilə bağlı işlər görülür

Gənclərin əmək bazarına çıxışından danışan mərkəz rəhbəri bildirib ki, bu yaxınlarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "ASAN xidmət" arasında əməkdaşlıq haqqında memorandumun imzalanıb: "Memoranduma əsasən sağlamlıq imkanları məhdud gənclər "ABAD" mərkəzlərinin fəaliyyətinə cəlb ediliblər. "ABAD"la müqavilələr bağlanır. Gənclərin əl işləri, hazırladıqları məhsullar "ABAD" brendi altında bazara çıxarılır, əldə olunan gəlir və pullar birbaşa onların hesabına keçirilir.

Bundan başqa "Britiş Konsulun" əlliliyi olan gənclərin əmək bazarına inteqrasiyası ilə bağlı reallaşdırdığı layihəyə mərkəzdən 60-dan çox gənc qatılıb. Onlar bu yaxınlarda keçiriləcək əmək yarmarkasına təqdimat alıblar. Bu yarmarkada gənclərimiz işəgötürənlərlə birbaşa təmasda olacaq, əl işlərini, hazırladıqları məhsulları nümayiş etdirəcəklər. Hazırda Təhsil Nazirliyində, DSMF-in şəhər və rayon şöbələrində, reabilitasiya mərkəzlərində işləyən gənclərimiz var".

### Fiziki məhdudiyyətli olmaq bacarıqsız olmaq deyil, sadəcə bizim fərqimizdir

Zaqatala rayonunun Uzun Qazmalar kənd sakini Könül Quliyevanın mərkəzlə tanışlığı 2014-cü ilə təsadüf edir. İlk dəfə rəsm kursuna gələn Könül toxuculuq bacarığının daha yüksək olduğunu hiss edib və toxuculuq kurslarına qatılıb: "Toxuma sənəti məni özünə daha çox cəlb etdi və makrame ilə məşğul olmağa başladım. Burada qaldığım müddətdə bir çox layihələrə qatıldım və bu tədbirlərdən özüm də ilhamlandım. Düşündüm ki, mən də layihə verə biləरəm. Gənclər Fonduna müraciət etdim, toxuculuqla bağlı layihə verdim və qəbul olundu, maliyyə ayırdılar. Zaqatalada uğurla layihəmi reallaşdırdım. 3 ay davam edən layihə çərçivəsində özüm fiziki məhdudiyyətli olsam da, 22 sağlam gəncə müəllimik etdim, toxuculuğun sirlərini onlara öyrətdim.

Eyni zamanda, 2014-cü ildən boccia idman növü ilə məşğulam, 2017-ci ildə milli komandaya daxil oldum. Elə həmin il qatıldığım beynəlxalq yarışda çıxış etdiyim kateqoriyada 1-ci yerə layiq görüldüm. 2017-ci ildə Belarusda komanda yarışlarında birincilik qazandım. Bu ilin oktyabr ayında İtaliyada dünya çempionatında olduq, orada komanda şəklində 3-cü yerə layiq görüldük. Beynəlxalq tədbirdə Azərbaycanın bayrağını yüksəltmək bizə böyük qürur verdi. Hazırda yenidən mərkəzdə dərzilik kursuna qatılmışam.

Tək qalanda, düşünürsən ki, heç nə bacarmaram, heç kimə lazım deyiləm. Mən də illərlə bu düşüncələrlə yaşamışam. Bütün əlliliyi olan insanlara çağırış edirəm ki, evdə oturmasınlar, bu mərkəzə gəlsinlər, hansısa peşəyə yiyələnsinlər. Burada onların həyatı mütləq dəyişəcək. Fiziki məhdudiyyətli olmaq bacarıqsız olmaq deyil, bu, sadəcə bizim fərqimizdir. Bu fərqimiz bizi daha da yüksəklərə apara bilər".

### Bu tarix mənim həyatımda dönüş nöqtəsi oldu

Daşqın Abbasov Lerik rayonundandır. 2016-cı ildən mərkəzdə ağac üzərində oyma kurslarına qatılıb. Həmçinin, 2 ildir idmanla məşğul olur. Paralimpiya idman növləri olan avarçəkmə və xizəksürmə ilə məşğuldur. Bu yaxınlarda Qış Olimpiya Oyunları ilə bağlı təlimlərə qatılmaq üçün Dubayda olub. O, gördüyü işdən zövq almaqla yanaşı, həm də pul qazanır. Daşqın deyir ki, əl işlərini həm sərgilərdə, həm də özəl sifarişlərlə sata bilir.

Mətanət Quliyeva isə mərkəzə gəldiyi ilk günü - 2014-cü ilin 23 iyun tarixini ikinci doğum günü hesab edir: "Doğrudan da, o tarix mənim həyatımda dönüş nöqtəsi oldu. İlk dəfə toxuma kursuna qatıldım. Rayonumuza qayıdandan sonra bu peşə ilə həm gəlir əldə edir, həm də sərgilərə qatılırdım. Bu da cəmiyyətə inteqrasiyanın bir növüdür. 2 ildən sonra yenidən mərkəzə gələrək, rəssamlıq kursuna yazıldım. Əslində mən burada peşə qazanmaqdan çox, sosiallaşmağı və özümü ifadə etməyi öyrəndim.

Eyni zamanda, 2014-cü ildən boccia idman növü ilə məşğul oluram. Bu idman növü haqqında eşidəndə, çox sevindim. Çünki əlində və əzələsində zəiflik olan insanlar üçün nəzərdə tutulan bir oyundur. Məşqlərə qatıldım, bir çox yarışlarda iştirak etdim. Yaxın günlərdə yarışlarımız olacaq və buna hazırlıq görürük. Hazırda mərkəzdə olmağımın səbəbi də budur".

Mətanət ədəbiyyat, poeziya vurğunudur, özü də şeirlər yazır. Yazdıqlarını "Kəpənəyin saldığı yol" kitabında toplayıb: "Yaxın gələcəkdə iki yeni kitabımı çap etdirməyi, eyni zamanda sosial layihələr həyata keçirməyi planlaşdırıram. Əlliliyi olan şəxslərə demək istəyirəm ki, özlərinə inansınlar, hər şey özünə inamdan başlayır. Fiziki imkanlarınız məhdud ola bilər, amma bu, bizlər üçün bir fürsətdir. Deməli, biz bundan yaxşı bir şəkildə istifadə edə bilərik. Valideynlər də övladlarına inansınlar. Yolları mütləq bu mərkəzdən keçsin".

### Bütün bu uğurlara qədər elə bilirdim ki, heç kəsə lazım deyiləm

Bəhruz Mirzəyev Masallı rayonundan gəlib. Mərkəzlə tanışlığı 3 il bundan əvvəl başlayıb: "Mən doğuşdan sağlam olsam da, sonradan fiziki məhdudiyyətli olmuşam. Ondan sonra özümə qapanmışdım, evdə olurdum, cəmiyyət içərisinə çıxmırdım. Hərə bir cür reaksiya verirdi, mən də utanırdım, çəkinirdim. 3 il bundan əvvəl eşitdim ki, belə bir mərkəz fəaliyyətə göstərir. Müraciət etdim və məni mərkəzə qəbul etdilər. Gəldim və peşə öyrənərkən, eşitdim ki, boccia idman növü var. Onu da deyim ki, boccia idman növü əlləri zəif olan insanların məşğul ola biləcəkləri yeganə idman növüdür. Məşqçi İlham Məhərrəmova müraciət etdim və boccia ilə məşğul olmağa başladım. İlham müəllim məni ruhlandırdı, dedi ki, səndə yaxşı alınacaq. Elə həmin il milli komandaya qəbul olundum. 3 ildir millinin, eyni zamanda federasiyanın üzvüyəm. Azərbaycanda 2 dəfə qızıl medal qazanmışam. Belarusda təlim məşqlərində iştirak etmişəm, sonra Türkiyədə keçirilən dünya çempionatında 3 yer qazanmışam. İspaniyada keçirilən dünya çempionatında komanda şəklində uğurlarımız olub. Fərdi şəkildə isə İtaliyada keçirilən Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam. Komanda şəklində isə 15 ölkə arasında 3-cü yerlə layiq görülmüşük. Bütün bu uğurlara qədər elə bilirdim ki, heç kəsə lazım deyiləm. Amma 15 dövlət içərisində dövlətimin bayrağını ən yüksəyə qaldıranda bildim ki, həyatda uğur qazanmaq üçün yollar, imkanlar çoxdur. Qarşıda bizi dünya çempionatı gözləyir. Ən böyük hədəfim isə 2020-ci il Olimpiya Oyunlarıdır".

### Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibət müsbətdir

2013-cü ilin dekabrında mərkəzin açılışı zamanı Cənab Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, əslində dövlətimizin, onun rəhbərinin bu qəbildən olan insanlara diqqətini, qayğısını və münasibətini bir daha ortaya qoyur: "Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibət müsbətdir. Bu, cəmiyyətimizin əlamətidir. Heç də hər yerdə belə deyildir. Dövlət siyasəti də bu istiqamətdə aparılır. Burada müxtəlif peşələrə sahib ola biləcək gənclərin gələcəkdə işlə təmin edilməsi üçün də biz gərək səylərimizi əsirgəməyək. Burada təlim kursları keçəcək insanların gələcək taleyi ilə də biz gərək maraqlanaq".

Mərkəzlə tanışlıq zamanı buradakı müsbət əhval-ruhiyyəni, müəssisə kollektivinin gənclərə qarşı isti, qayğıkeş münasibətini, gənclərin simasındakı təbəssümü, gözlərindəki işığı görməmək, hiss etməmək imkansızdı. Başqalarının əngəl, məhdudiyyət kimi gördüklərini uğura çevirən bu gənclərə qibtə etməmək mümkün deyil. Özlərinin də ifadə etdiyi kimi: "Bu, sadəcə bizim fərqinizdir. Bu fərq bizi daha da yüksəklərə apara bilər".

***Cabir Məmmədov***

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür*

# Siyasi "bomj"luğun Əli Kərimli nümunəsi

*Azərbaycan müxalifəti üçün AXCP sədrinin anormal addımlarından böyük rəzalət və utancverici addım ola bilməz*

***Məlum faktdır ki, AXCP, Müsavat kimi dağıdıcı xislətli partiya funksionerləri düşdükləri böhranlı durumdan çıxa bilmədiklərini dərk etdiklərindən, çıxış yolunu milli və dövlətçilik maraqlarına zərbə vurmaqda görürlər. Bu yarıtmaz ünsürlər "cəhənnəmə gedən özünə yoldaş axtarar" məsəlinə uyğun olaraq xalqına, dövlətinə xəyanət edərək erməni ilə işbirliyi qurmaqdan çəkinməyən Emin Milli, Xədicə İsmayıl, Leyla Yunus və bu kimi digər məkrli şəxslərdən öz çirkin məqsədləri üçün istifadə etməkdən çəkinmirlər. Baxmayaraq ki, bəzi hallarda onların arasında ziddiyyətlər üzə çıxır. Bunu Müsavat başqanının keçmiş müavini Qubad İbadoğlu da dilə gətirib.***



O, X.Ismayılı yalançı müxalif, saxta vətənpərvər adlandırıb. Bu kimi etiraflardan və əldə olunan məlumatlardan sonra, bir daha onu demək olar ki, Azərbaycanı istəməyən bəzi məkrli təşkilatların ayırdığı qrant Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri üçün milli maraqlardan daha önəmlidir. Baxmayaraq ki, AXCP ilə Müsavat heç zaman bir araya gələ bilmirlər. Bir-birini sıradan çıxarmaq sanki onların əsas fəaliyyət istiqamətləri olub. Ancaq Azərbaycanın əldə etdiyi uğurlara kölgə salmaq və xarici ağalarının sifarişlərini yerinə yetirmək məsələsində bir yerdədirlər. Çünki xarici qrant verən ağaları belə istəyir.

### AXCP-nin yenidən parçalanması qaçılmazdır

Faktlara və araşdırmalara əsaslanaraq, demək olar ki, xarici maraqlı dairələrə satılmaqla özünə maliyyə imkanları əldə etməsinə baxmayaraq, onun vəziyyəti böhranlı durumdadır. Yəni, AXCP parçalanaraq dağılmaq problemi ilə üzləşməkdədir. Vəziyyətdən çıxış yolu da görünmür. Çünki yarıtmaz, səhv siyasət AXCP-nin yenidən parçalanmasını və bununla da fəaliyyətini dayandırmasını qaçılmaz edib. Vəziyyətdən çıxmaq üçün Ə.Kərimli icazəsiz aksiyalar keçirib, qarşıdurmalar yolu ilə diqqəti özünə cəlb etməyə çalışsa da AXCP-nin dağılmasının qarşısını ala bilməyəcək. Bu baxımdan, demək olar ki, yaxın vaxtlarda AXCP tarixin zibilliyinə atılacaq. Təbii ki, bunun da başlıca səbəbi və günahkarı Ə.Kərimli ilə bağlıdır. Daha doğrusu, onun səhv və yanlış siyasət aparması AXCP-ni tarixin zibilliyinə atılması dilemması qarşısında qoyub. Birmənalı şəkildə, demək olar ki, "Yurd" şefini tanıyanlar onun öz şəxsi mənafeyi naminə milli və dövlətçilik maraqlarına zərbə vurmağa çalışan şəxs olduğunu bildirirlər. Hətta ona pul verənlər sonradan yanlışlığa yol verdiklərini etiraf edirlər. Misal olaraq, 2005-ci ildə "Azadlıq" qəzetinə yardım məqsədi ilə Ə. Kərimliyə pul verən Rusiyada yaşayan azərbaycanlı iş adamı Sakit Allahverdiyevin sonradan bu addımı ilə kobud səhvə yol verdiyini bildirməsini göstərmək olar. Belə ki, S.Allahverdiyevin qəzetin borclarının ödənilməsi, işçilərin maaşlarının verilməsi üçün ayırdığı pul Ə.Kərimli tərəfindən mənimsənilib. Böyük Qurtuluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa da bildirib ki, dürüstlükdən, ləyaqətdən, vətəni sevməkdən, guya xalqın marağının təəssübünü çəkməkdən danışan Ə.Kərimlinin arxa planda elə dələduzluqları var ki, aşkara çıxdıqca cəmiyyət özü heyrətə gələcək ki, bu adamlar hansı üzlə başqalarına böhtan atır, irad bildirirlər, hətta tənqid edirlər? "Ona görə də, məncə, bu, çox ciddi informasiyadır və tam məsuliyyətimlə deyirəm ki, həqiqətə uyğundur. Bu mətbəxdə belə olay çox adi bir şeydir. O vaxtlar Xalq Cəbhəsinin də vəsaitlərinin bu cür dağıdılması, çirkin əməllərin baş verməsi göz qabağındaydı".

### Əli Kərimli cəmiyyətdə özünə ləyaqətsiz siyasətçi imici yaradıb

Müasir dövrün yenilikləri və dəyişiklikləri onu təsdiq edir ki, hansısa yersiz açıqlamalar, gülüş doğuran şoularla diqqət mərkəzinə çevrilmək mümkün deyil. Cəmiyyətlər ciddi yanaşmanı, əsaslı ideyaları, düşündürücü və reallığa söykənə biləcək təklifləri qəbul edir və bu cür vasitədən istifadə edənləri dəstəkləyir. Ancaq görünən odur ki, Azərbaycan müxalifətinin daşıyıcıları, xüsusilə də, mövzumuzda adı çəkilən AXCP sədri bu prinsiplərə uyğun siyasət aparmaqdan kənardır. Bunu ötən həftə Ə.Kərimlinin Şəhidlər Xiyabanında icazəsiz aksiya keçirməsi və aksiya zamanı cəmiyyəti terrora, pozuculuq aktları törətməyə çağırması da təsdiqləyir. Onun yaratmaq istədiyi növbəti uğursuz şou, bir daha onu göstərir ki, illər keçib, 30 ili əvəzləməsinə baxmayaq bu yarıtmaz ünsür meydan təfəkküründən və düşüncəsindən əl çəkməyib. Deməli, ya bu adam anormal insandır, ya da öz ağlı ilə hərəkət etmir. Yəni o, qarşısına qoyulan konkret plan əsasında hərəkət edir. Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzov bildirib ki, Ə.Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri üst-üstə düşür: "Yəni bunlar eyni mənbədən istiqamətləndirilir. AXCP-dən istefa verən şəxslər də bildiriblər ki, Ə.Kərimli Azərbaycan xalqının maraqlarını deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə, erməni lobbisinin maraqlarını həyata keçirməklə məşğuldur. O baxımdan, ölkədə görülən işlərə kölgə salmaq, mənfi fikir söyləmək, çox primitiv şəkildə, saxta rəqəmlərlə insanları çaşdırmaq, bilavasitə həmin təxribatçı qrupların planının tərkib hissəsidir. Bu plana uyğun olaraq da, Ə.Kərimli öz şəbəkələrinə aid mətbuat orqanında guya ölkəmizin sosial-iqtisadi vəziyyətinə dair müsahibə verib. Əslində, ilk baxışdan belə görünür ki, kimlər tərəfindənsə hazırlanaraq, onun adı ilə verilib. Yəqin, bu da yuxarıda adlarını çəkdiyim dairələrin işidir".

Bir sözlə, "Yurd" şefinin bədnam fikirlərinə və törətdiyi təxribatlara əsaslanaraq, demək olar ki, Ə.Kərimli Azərbaycan dövlətinə və xalqına qarşı erməni lobbisinin terror və separatizm fəaliyyətindən fərqlənməyən fəaliyyət yolu tutmaqdadır. Daha doğrusu, erməni lobbisi ilə eyni maraqları bölüşür. Belə ünsür təbii ki, ittihama və qınağa layiqdir, necə ki, xalq bu mövqeyi Ə.Kərimliyə qarşı nümayiş etdirir.

**İ.ƏLİYEV**

# Mais Səfərli: "Əli Kərimlinin partiyası darmadağın olub"



*Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir*

***- Mais bəy, Əli Kərimli icazəsiz aksiyaya cəhddən sonra da şər və böhtanlarını davam etdirir. Sizcə, bu şəxs ictimai rəyə qarşı çıxmaqla nəyə nail olmaq istəyir?***

- Azərbaycan demokratik və hüquqi dövlətdir. Bizim həm konstitusiyamızda, həm də qanunlarımızda sərbəst toplaşma azadlığı haqqında müddəalar nəzərdə tutulub. Yəni hər bir Azərbaycan vətəndaşı konstitusiyamız və qanunlarımıza görə istədiyi vaxt aksiyalar keçirə bilər. Ancaq bu cür hallar milli və dövlətçilik maraqlarına qarşı olmamalı, insanların rahatlığını pozmamalıdır. Amma bir sıra radikal müxalifət nümayəndələri var ki, qanunlara məhəl qoymurlar. Qanunda nəzərdə tutulur ki, bu hüquqdan istifadə edənlər mütləq icra hakimiyyəti orqanlarına müraciət etməlidirlər. Yəni bu, o demək deyil ki, kim nə vaxt istədi, harda istədi kütləvi aksiya keçirə bilər. İcra hakimiyyəti orqanları yerlər ayırır və həmin yerlərdə aksiya keçirmək olar. Əgər Ə.Kərimli aksiya keçirmək istəyirdisə, bunu mütləq icra hakimiyyəti orqanları ilə razılaşdırmalı idi.

***- Ə.Kərimlinin, qanuna qarşı çıxmaqla, kimlərinsə göstərişini yerinə yetirdiyini demək olarmı?***

- Bəli, Ə.Kərimlinin son addımları şübhə doğurduğundan, onun kimlərinsə sifarişini yerinə yetirdiyi ehtimalları yaradır. Çünki aksiya keçirmək istəyən qanuna müvafiq addım atmalıdır. Kütləvi aksiyanın keçirilməsi digər insanların hüquqlarının pozulmasına gətirib çıxarmamalıdır. Yenə deyirəm, aksiya keçirmək üçün icra hakimiyyəti orqanlarına müraciət etmək, onların razılığını almaq birmənalı şəkildə lazımdır. Bu, təkcə bizdə deyil, demokratik-hüquqi dövlətlərin hamısında belədir.

***- Bu, o anlamı yaratmır ki, müxalifət demokratik mühitdən sui-istifadə etməklə, siyasi maraqlarını həyata keçirməyə cəhd edir?***

- Demokratiya anarxiya deyil ki, istədiyini edəsən, azadlıq - bu, o demək deyil ki, istədiyin hərəkətləri, davranışı sərgiləyə biləsən. Demokratiya, ilk növbədə, qanunlara və insan hüquqlarına hörmət deməkdir. Əgər sən hər hansı bir addımınla, davranışınla başqa vətəndaşların hüquqlarını pozursansa, deməli, sən artıq demokratik hərəkətlərə yol vermirsən. Yəni artıq qanunazidd hərəkətlərə yol verirsən. Radikal müxalifət düşərgəsinin nümayəndələri, məhz bu cür davranış sərgiləyirlər ki, bu da, haqlı olaraq ictimai narazılıqlar yaradır.

***- "Milli Şura"nın sədri Cəmil Həsənli də keçirdiyi mətbuat konfransında ənənəsinə uyğun olaraq şər və böhtan kampaniyasından geniş şəkildə istifadə etdi. Sizcə, şantaj və böhtanla siyasi istəklərə nail olmaq olarmı?***

- Bunlar şər və böhtan kampaniyasını aparmaqla diqqət mərkəzinə çevrilməyə çalışırlar. Çünki C.Həsənli və Ə.Kərimli artıq unudulmuş siyasətçilərdir. Yəni adları çəkilən şəxslər cəmiyyətə normal çağırışlar verə bilmir, bu, azmış kimi, partiya quruculuğu həyata keçirməkdən məhrumdurlar. Bu baxımdan, Ə.Kərimlinin partiyası darmadağın olub. Artıq onların rəhbərlik etdikləri partiyalarda 3-5 nəfərdən və öz yaxın dostlarından başqa ətraflarında heç kəs qalmayıb. Ona görə də, yersiz hərəkətləri ilə xaricdə olan bəzi qüvvələrin diqqətini özlərinə cəlb etməklə, bir müddət gündəmdə qalmaq istəyirlər. Bildiyiniz kimi, Azərbaycanı xaricdə istəməyən dairələr var. Həmin dairələr ölkəmizdə xoşagəlməz bir hal yaratmaq istəyirlər. Ə.Kərimli, C.Həsənli kimilər onların istək və arzularının icraçılarına cevriliblər, təbii ki, maliyyə yardımı almaları qarşılığında. Amma nə etmələrindən asılı olmayaraq, onlar məkrli niyyətlərini həyata keçirə bilməyəcəklər. Çünki Azərbaycan güclü və qüdrəli dövlətdir və burada heç bir qüvvə, o cümlədən törtöküntüdən ibarət olan müxalifət pozucu məqsədinə nail ola bilməyəcək.

**GÜLYANƏ**

### "Azərbaycan BMT TŞ-ya, ATƏT-ə müraciət etməlidir"

"Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri kimi özünü təqdim edən Bako Saakyanın Fransadan sonra ABŞ-a səfəri onu göstərir ki, dövlətlər beynəlxalq hüquq normalarına riayət etmək istəmirlər". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloqun sözlərinə görə, ortada xristian təəssübkeşliyi də mövcuddur: "Beynəlxalq təşkilatlar (NATO sammiti, Avropa Parlamenti, Avropa Şurası, Qoşulmama Hərəkatı, İƏT) bir tərəfdən Azərbaycanın ərazi bütövlüyü haqqında bəyanatlar yayırlar, digər tərəfdən isə məsələ qaranlıq olaraq qalır. Axı onlar hansı pasportla, viza ilə Fransaya və ABŞ-a səfər edir? Fransa və ABŞ başqa qondarma ölkənin pasportuna peçat vururlar və beləcə de-fakto həmin qondarma dövlətin hüquqlarını tanımış olurlar. Azərbaycan bu istiqamətdə təcili tədbirlər görməlidir. Çünki bunlar artıq həddini aşıblar. Zənnimcə Azərbaycan ya BMT-nin Təhlükəsizlik Şurasına, ya da ATƏT-ə müraciət etməlidir. Belə adamların bu cür qanunsuz səfərləri və dövlətlərdə onlara xoş münasibət göstərilməsi beynəlxalq hüququn normalarına ziddir".

# Azərbaycanda çoxpartiyalılıq şəraitində insan hüquq və azadlıqlarının müdafiəsinin spesifikliyi

***70-ci illərin sonu 80-ci illərin əvvəllərində sovet cəmiyyətinin siyasi sistemi mürəkkəb və ziddiyyətli xarakter daşıyırdı. İ.Vəliyev və C.Hüseynov göstərir ki, demokratik forma ilə bürokratik siyasi sistem arasındakı ziddiyyət özünü, xüsusilə, göstərirdi. Belə bir siyasi sistemin mövcud olması müxtəlif sahələrdə durğunluğa gətirib çıxardı. Yaranmış vəziyyət sovet cəmiyyətinin geniş potensialından, demokratik prinsiplərdən tam şəkildə istifadə etməyə imkan vermirdi. Bütün hakimiyyət, demək olar ki, Kommunist Partiyasının əlində cəmlənmişdi. Partiya komitələrinin çoxunda isə köhnəliyə meyillik üstünlük təşkil edirdi. Lakin Azərbaycan mühüm nailiyyətlər qazanaraq, ölkənin ön mövqelərindən birinə çıxmışdı. 80-ci illərin sonu, 90-cı illərin əvvəlində isə siyasi mübarizənin genişlənməsinin nəticəsi olaraq, siyasi sistemdəki demokratik dəyişikliklər təkpartiyalılığın ləğvinə, çoxpartiyalılığın bərqərar olmasına zəmin yaratdı.***

Demokratikləşdirmə siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqının bütün respublikalarında, eləcə də, Azərbaycanda demokratik cəmiyyətlər, siyasi partiyalar təşəkkül tapdı. Yeni partiyaların yaranması seçki kampaniyalarından əvvələ təsadüf edir.

Dünyada müxtəlif yönümlü 900-ə yaxın partiya mövcuddur. Azərbaycanda isə 50-yə yaxın siyasi partiya fəaliyyət göstərir. 90-cı illərdə qəbul edilmiş "Siyasi partiyalar haqqında" Qanun"un qəbul edilməsi siyasi plüralizmin və çoxpartiyalılığın formalaşmasına güclü təsir etdi.

Təkpartiyalılıqdan çoxpartiyalılığa keçid, ideoloji sahədə hegemon kommunist dünyagörüşünün seçilməməsi, əslində, siyasi-mənəvi sahələrdə totalitarizmdən açıq cəmiyyət prinsiplərinin əsas tutulduğu bir cəmiyyətə keçid deməkdir.

Politoloqlar çoxpartiyalılığın formalaşması üçün aşağıdakı siyasi şəraitin mövcudluğunu zəruri hesab edirlər:

- dövlət tərəfindən yardım və kömək (maddi kömək, bina verilməsi və s.) edilməsi;
- siyasi partiyalara münasibətdə dövlət siyasətinin müəyyən edilməsi. Burada əsas cəhəti partiyaların və seçki sistemlərinin qeydiyyata alınması təşkil edir;

qüvvələrin potensialının cəmlənməsinə əngəl olur, təsir imkanlarını daha da azaldır. "Azərbaycanda İctimai birliklər haqqında" və "Siyasi partiyalar haqqında" qanunlarının qəbul edilməsinə baxmayaraq, müasir dəyişiklikləri nəzərə alan yeni qanun qəbul edilməmişdir. Yalnız siyasi partiyalar haqqında hakimiyyətdə siyasi qüvvələrin dəyişilməsinə şərait yaradan partiya, eyni zamanda, ideologiyanın daşıyıcısı da hesab olunur. Eyni maraq və prinsiplərə malik olan insanların qruplaşmasını da partiya hesab etmək olar. Partiya hakimiyyət uğrunda mübarizə aparır və ya hakimiyyətin həyata keçirilməsində iştirak edir. Hər bir siyasi partiya xalqın dəstəyini qazanmağa çalışır. Bu dəstək üzvlüyün artmasından başlayaraq seçkilərdə olan dəstəyə qədər gəlib çıxır. Partiya sistemləri birpartiyalı, ikipartiyalı, çoxpartiyalı sistemlərə bölünür." Demokratik cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində bu gün ikipartiyalı siyasi sistem təşəkkül tapmışdır. İkipartiyalı sistem, əslində, kəskin plüralist çoxpartiyalılığın tarixi təkamülü nəticəsində yaranmış müasir mərhələsidir. Onlardan biri hakimiyyətdə, digəri isə dan birinin parlamentdə yerlərin əksəriyyətinin sahibi olmasını təmin etməklə hökumətin stabil və mübariz formada öz proqramını həyata keçirməsinə imkan verərək, dövlət hakimiyyətini möhkəmləndirir. İkipartiyalı sistemin siyasi stabilliyin təminatçısı sayılmasına baxmayaraq, nöqsanlardan xali deyildir. Bu sistemdə siyasi rəqiblər diqqəti iqtidar partiyasının buraxdığı səhvlərə yönəldirlər və bütün potensiallarını onun hakimiyyətdə öz yerlərini tutmağa sərf edirlər. Siyasi partiyaların meydana gəlməsinin səbəbinin biri adamların keçmiş cəmiyyətə nisbətən siyasi fəaliyyətə daha həvəslə qoşulması idisə, digər səbəbi isə, artıq dövlət ideologiyasının iflasa uğraması nəticəsində ortaya çıxan boşluğun doldurulması ehtiyacı idi. "Siyasi partiyalar haqqında" verilən qanun yeni yaranmaqda olan partiyaların fəaliyyətinin tənzimlənməsinə şərait yaratdı. Siyasi partiyaların cəmiyyətdə funksiyalarını tam yerinə yetirmələri üçün hər bir ölkə müəyyən tarixi inkişaf mərhələsi keçməli olmuşdur.

Politoloji ədəbiyyatın, siyasi partiyaların və ictimai-siyasi birlik-




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

- partiya sistemlərinin ümumdövlət mənafeləri və ictimai tələbatlarla uyğunlaşdırılması;
- yeni sosial strukturun formalaşmasına, o cümlədən, orta sinfin əmələ gəlməsinə imkan yaradılması.

Parlamentli respublikalarda qanunverici orqana seçilən müxtəlif siyasi partiyaların deputatlarının Nazirlər Kabinetini təşkil etmək və onun tərkibinə düşmək ehtimalları çoxdur. Prezidentli respublikalarda, o cümlədən, Azərbaycan Respublikasında icra hakimiyyətinin başçısı Prezident özü olduğundan, həmin strukturda təmsil olunmaq hüququ, əsasən, hakim partiyanın üzvlərinə aid olur. C.Əsgərova yazır: "Çoxpartiyalılığa keçid XX əsrin 90-cı illərində Azərbaycan cəmiyyətinin təkamülünün ən mühüm nailiyyətlərindən biri olmuşdur. Partiyaların çoxluğu şəraitində onların pərakəndəliyi siyasi sistemin səmərəli fəaliyyətinə mənfi təsir edən amillərdəndir. Partiyaların süni surətdə çoxalması siyasi müxalifətdə olur və hakimiyyətdən narazı olanlar onun ətrafında birləşir. Hökumətin fəaliyyətində yer tapmayan məsələlər müxalifət partiyasının siyasi proqramına çevrilir. İki partiyanın mövcudluğu siyasi sabitliyi təmin edir. Adətən, cəmiyyətdə iki aparıcı partiya ilə yanaşı,




***Siyasi partiyaları və ictimai-siyasi təşkilatları tiplərə ayırarkən, ideoloji mənsubiyyət, sosial baza, təşkilati prinsiplər əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar bir-birilərindən strukturlarına, iş formaları və metodlarına görə fərqlənirlər.***

onlarla kiçik siyasi partiyalar da mövcud olur və onlar nüfuzlarını artırmaq məqsədilə səs toplamağa çalışırlar. İkipartiyalı sistem ümummilli seçkilərdə partiyalarların proqram sənədləri göstərir ki, ümumi cəhətlərin kristallaşması cəhdləri müxtəlifdir. Siyasi partiyaların və ictimai-siyasi birliklərin təbliğat-təşviqat mərhələsi, əsasən, özlərinə tərəfdar toplamaqdan, sosial baza yaratmaqdan ibarət olub. Buraya icazə verilməmiş mitinqlərdən tutmuş ümumdövlət miqyasında imza toplanmasınadək fəaliyyət aiddir. Xronoloji olaraq bu mərhələ 90-cı illərin sonunadək davam etmişdir. Bu vaxtdan başlayaraq partiya sistemlərinin subyektləri öz fəaliyyətini proqram məqsədlərini həyata keçirməyə yönəltmişlər.

Siyasi partiyaları və ictimai-siyasi təşkilatları tiplərə ayırarkən, ideoloji mənsubiyyət, sosial baza, təşkilati prinsiplər əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar bir-birilərindən strukturlarına, iş formaları və metodlarına görə fərqlənirlər. Belə ki, sosial-demokrat və liberal-demokrat ənənələrində oxşarlıq bu iki ideya-siyasi cərəyana mənsub təşkilatların yaxınlaşmasını nə dərəcədə şərtləndirirsə, mühafizəkar ənənələr sağ yönümlü partiyaları bu iki cərəyana mənsub partiyalardan müəyyən məsafədə saxlayır. Azərbaycandakı siyasi qüvvələrin sosial-siyasi əsaslarına görə təhlil etdikdə, belə nəticə hasil olur ki, partiya subyektlərinin təkamül istiqaməti, əsasən, sağ istiqamətə doğru olmuşdur. Mərkəzçi qüvvələrin meydana gəlməsi isə təbliğati üsul olub, ictimai mənafeləri qoruyan imicini yaratmaq üçün edilən cəhdlərlə bağlı olmuşdur. Dağlıq Qarabağ problemi milli məsələdə azərbaycançılıq prinsipinin populyarlaşmasına səbəb olmuşdur.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# səs

Son səhifə 22 noyabr


## Görmə qabiliyyətini itirməmək üçün bu tərəvəzləri hər gün yeyin



Gündəlik olaraq nitratlarla zəngin tərəvəzlərin istifadəsi görmə qabiliyyətinin itirilməsi riskini azaldır. XəzərXəbər Trend-ə istinadən bildirir ki, bu qənaətə "Uestmid" Tibbi Araşdırmalar İnstitutunun bir qrup alimi gəlib.

15 il davam edən araşdırmalarda Avstraliyanın yaşı 49-u keçmiş iki mindən çox sakini iştirak edib. Məlum olub ki, hər gün nitratlarla zəngin olan çuğundur, ispanaq kimi tərəvəzlər, həmçinin yaşıl salat yeyənlərdə (100-142 mq) 35 faiz daha az makulodistrofiya diaqnozu qoyulub.

Qeyd edək ki, makulodistrofiya gözün selikli qişasını zədələyir və yaşlı adamlar arasında görmə qabiliyyətinin itirilməsinin əsas səbəblərindən biridir.

Bundan əvvəl alimlər müəyyənləşdirmişdilər ki, həftədə ən azı bir dəfə sitrus məhsullarının qəbulu gözün tor qişasını degenerasiyadan qoruyur.

## Hər 2 dəqiqədə bir körpənin həyatına son qoyan TƏHLÜKƏLİ EPİDEMİYA



Dünya Səhiyyə Təşkilatının noyabrın 19-da yaydığı məlumatda son illərdə müxtəlif ölkələrdə malyariyanın ciddi təhlükə yaratdığı qeyd edilir. Mənzil-qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən beynəlxalq qurumun statistikasına görə, xəstəlik dünyada hər iki dəqiqədə bir körpənin ölümünə səbəb olur. Hesabatda göstərilir ki, 2017-ci ildə dünyada malyariyaya yoluxma statistikasına 2 milyon hal əlavə olunub və ümumilikdə 219 milyon yoluxma halı qeydə alınıb. Yoluxmaların təxminən 90 faizi Afrika qitəsində baş verib və ötən il 451 min insan bu xəstəliyin qurbanı olub. 2016-cı ildə isə epidemiyadan ölənlərin sayı nisbətən az - 435 min nəfər olub. Epidemiyadan ölənlərin böyük hissəsi (266 min nəfər) beş yaşadək uşaqlardan ibarətdir ki, bu da təşkilat üçün acınacaqlı vəziyyət hesab olunur. Hesabatda qeyd edilir ki, əslində dəf edilməsi mümkün ola bilən xəstəlikdən hər iki dəqiqədə bir körpənin dünyasını dəyişməsi qəbuledilməz haldır.

Dünya Səhiyyə Təşkilatı 2010-2015-ci illərdə Afrikada malyariyaya qarşı mübarizədə uğurlar əldə etsə də, 2016-cı ildən başlayaraq yoluxma hallarının sayı artıb. Əsas problemli ölkələr Nigeriya, Mozambik və Konqodur.

Təşkilat dünya ölkələrini malyariyaya qarşı peyvəndvurma tədbirlərini gücləndirməyə, yoxsul ölkə və regionlara maliyyə dəstəyini artırmağa, eləcə də əhali arasında bu xəstəliklə bağlı maarifləndirmə işi aparmağa və profilaktik tədbirlər görməyə çağırıb.


### ELAN

Bakı Mühəndislik Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin, Maliyyə ixtisasının I kurs tələbəsi Pənahov Anar Elşad oğluna məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Bakı şəhəri Sabunçu rayonu Sabunçu qəsəbəsi, Musabəyov küç, ev 13 ünvanında yaşayan Xəlilova Günay Novruz qızına məxsus kupça (çıxarış), texpasport və vərəsəlik sənədləri yandığı üçün etibarsız sayılır.


## UEFA Millətlər Liqasında qrup mərhələsinə yekun vurulub

Futbol üzrə UEFA Millətlər Liqasında qrup mərhələsinin oyunlarına yekun vurulub. Qrup mərhələsinin son oyun gündə ümumilikdə yeddi görüş keçirilib. Bu nəticələrdən sonra növbəti mərhələyə yüksələn sonuncu 4 komanda müəyyənləşib. A Liqasının 3-cü qrupunda keçirilən Portuqaliya-Polşa matçında qalib müəyyənləşməyib - 1:1. Portuqaliya qrupu birinci pillədə başa vuraraq pley-off mərhələsinə yüksəlib, Polşa isə A liqasını tərk edib. B Liqasının ikinci qrupunda İsveç yığması öz meydanında Rusiya millisini 2:0 hesabı ilə məğlub edərək qrupu birinci pillədə tamamlayıb.

C Liqasında isə üç oyun keçirilib. Birinci qrupda Şotlandiya millisi doğma meydanda İsrail futbolçularını 3:2 hesabı ilə məğlubiyyətə uğradaraq növbəti mərhələyə vəsiqəni təmin edib. Serbiya millisi dördüncü qrupu lider kimi tamamlayıb. Son turda Litvaya qalib gələn Serbiya Monteneqro və Rumıniya üçün əlçatmaz olub. D Liqasının üçüncü qrupunda Malta ilə Farer adaları ilə 1:1 hesablı heç-heçəyə razılaşıblar. Bu qrupdan Kosovo millisi növbəti mərhələyə yüksəlib. Azərbaycan komandası isə ikinci yeri tutub.

## Ruslan Abışov: "Karyeram boyu heç vaxt bu qədər dəstək görməmişəm"



"Nəhayət ki, uzun müddətdən sonra məşqlərə başladım. Klub həkimlərimiz üç həftə fərdi məşq etməyi tapşırıblar. Onların verdiyi plan üzrə çalışıram. Günü-gündən özümü daha da yaxşı hiss edirəm." Bu sözləri uzun müddət zədə üzündən əziyyət çəkən və hazırda məşqlərini bərpa edən futbol üzrə Azərbaycan milli komandasının və "Neftçi" klubunun müdafiəçisi Ruslan Abışov deyib.

"Futbolçu bildirib ki, karyeram boyu heç vaxt bu qədər dəstək görməmişəm. Həqiqətən də azarkeşlərin yazdığı hər bir məktub, göstərdiyi hər bir diqqət sağalma prosesini daha da sürətləndirir. Bu zaman kəsiyində mənə təsəlli verib, dəstək olan azarkeşlərin hər birinə minnətdaram."

## "Milan"dan açıqlama: "İbrahimoviçlə danışıqlar aparırıq"



"Milan" futbol klubu, sabiq futbolçusu - "Los-Anceles Qelaksi"nin hücumçusu Zlatan İbrahimoviçlə danışıqlar apardığını təsdiqləyib. Bu barədə klubun idman direktoru Leonardo məlumat verib. O, isveçli hücumçunun "Milan"a keçməyə çox yaxın olduğunu bildirib: "Amma indi bu barədə ətraflı danışmaq zamanı deyil". Qeyd edək ki, "Milan" rəsmilərinin futbolçunun agenti Mino Rayola ilə görüşdüyü və 37 yaşlı oyunçuya 6 ay + 6 ay şərti ilə müqavilə təklif etdiyi iddia olunur. Xatırladaq ki, İbrahimoviç 2010-2012-ci illərdə "Milan"da çıxış edib.

## Qomisdən "Fənərbaxça" açıqlaması - "Aslanlar uça bilməz"



"Qalatasaray"ın keçmiş futbolçusu Bufetimbi Qomis "Fənərbaxça"ya transfer olunacağı ilə bağlı yayılan xəbərlərə münasibət bildirib. Qol.az-ın Türkiyə mətbuatına istinadən yaydığı məlumata görə, 33 yaşlı hücumçu "instaqram" səhifəsində etdiyi paylaşımla bu xəbərləri təkzib edib: "Mən danışılan söz-söhbətlərdən qürur duyuram, xoşbəxtəm, amma aslan həmişə evində - Aslantəpədə qalacaq. Çox təəssüf edirəm, Aslanlar uça bilməz". Qeyd edək ki, Seneqal əsilli fransalı futbolçu ötən mövsümün sonunda "Qalatasaray"dan Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubuna transfer olunub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**